# Xalq qəzeti

Xalqın qəzeti!

№ 158 (30562) 28 iyul 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Milli iqtisadiyyatımız “Fitch Ratings” reytinqində önə çıxıb




**“Fitch Ratings” Azərbaycanın uzunmüddətli xarici valyuta emitentinin defolt reytinqini “BB+” səviyyəsindən “BBB-” səviyyəsinə yüksəltdiyini və sabit perspektivlə qiymətləndirdiyini açıqlayıb.**

FitchRatings

“Fitch Ratings” reytinq agentliyinin bu barədə məlumatına görə, yüksəliş ölkənin güclü xarici balans hesabatını, davam edən cari hesab və fiskal profisitlərini, azalan xarici valyuta həssaslığını, aşağı dövlət borcunu, habelə inkişafda olan monetar siyasəti əks etdirir.

Agentliyin xəbərinə əsasən, illik inflyasiya 2024-cü ilin birinci yarısında Mərkəzi Bankın 4 faizlik hədəf diapazonundan aşağı qalıb və bu il 3,5 faiz səviyyəsində olacağı, 2026-cı ilə qədər isə 4,7 faizə yüksələcəyi gözlənilir. Bundan başqa ölkə iqtisadiyyatının 3,2 faizə qədər bərpa olunacağı, lakin gələn il 2,7 faizə, 2026-cı ildə isə 2,3 faizə qədər yavaşlayacağı proqnozlaşdırılır.

“Eyni zamanda, neft sektorunun geriləməsi əvvəlki illərə nisbətən azalacaq, bu da azalma tempini yavaşlada biləcək yeni neft hasilatı və daha yüksək təbii qaz hasilatı ilə əlaqədardır”, – agentlik vurğulayıb.

Yeri gəlmişkən, Maliyyə Nazirliyi “Fitch Ratings” beynəlxalq kredit reytinq agentliyi tərəfindən iyulun 26-da Azərbaycanın uzunmüddətli xarici valyutada reytinqinin bir pillə artırılaraq BBB-, yəni investisiya dərəcəli reytinqə yüksəldilməsi barədə qərarını təqdir edir.

Bu barədə Maliyyə Nazirliyinin açıqlamasında bildirilib. “Səkkiz ildən sonra suveren reytinqimizin yenidən investisiya dərəcəsinə qaytarılması, reytinq üzrə proqnozun isə “Stabil” olaraq təyin edilməsi heç şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökumətinin həyata keçirdiyi makroiqtisadi və monetar siyasət, institusional islahatlar, investisiya mühitinin yaxşılaşdırılması, dövlət borcunun, xüsusilə xarici dövlət borcunun aşağı səviyyəsi və digər ardıcıl və çoxşahəli islahatların beynəlxalq miqyasda qiymətnləndirilməsinin təzahürüdür”, – açıqlamada qeyd olunub.

*(ardı 7-ci səhifədə)*

## Olimpiya Oyunları prinsipləri “Paris -2024”də pozulur



Səhifə ⇨ 2

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası



Səhifə ⇨ 5

## Ermənistan rəhbərliyinin xisləti dəyişmir



Səhifə ⇨ 3

## Gürcüstanda anti-Rusiya ovqatı yaratmaq cəhdləri: tarix və bu gün

Səhifə ⇨ 4

## COP29 Azərbaycan Əməliyyat Şirkətinin növbəti təlimi

Səhifə ⇨ 8

## “Azərbaycan dövlətinin bu uzaqgörən siyasəti bizi qürurlandırır”



Səhifə ⇨ 11

## Xəzərin sahilində möhtəşəm festival



Səhifə ⇨ 10

# ABŞ Konqresində hayların “özfəaliyyət dərnəyi”

*Bəzi konqresmen və senatorlar Menendezin aqibətini təkrarlamağa namizəddirlər*



**Həm Ermənistanda, həm də okeanın o tayında keçmiş Qarabağ separatçılarının fəaliyyəti gündəmdən düşmür. Hayastan paytaxtında tarixin arxivinə göndərilmiş “artsax”ın “nümayəndəliyi” hələ də fəaliyyət göstərir. Bütün bunlar ondan xəbər verir ki, Paşinyan hakimiyyəti revanşist ideyalarından, işğalçı siyasətindən əl çəkmək niyyətində deyil.**

Hər şeyin səbəbi olduğu kimi, bu “özfəaliyyətin” də təşkilatçıları, dəstəkçiləri, ilhamverici qüvvələri var. Kollektiv Qərbin şirin vədlərinə inanan, başı sığallanan İrəvanın Avropa Sülh Fondundan aldığı 10 milyon avrodan, ABŞ-la birgə hərbi təlimlərdən şirnikləndiyi göz qabağındadır.

ABŞ-nin və Avropa İttifaqının fəaliyyətinin ermənipərəst xarakter daşıdığını, onların sülhə dəstək pərdəsi altında atdıqları hərbi-siyasi addımların regionda bölücü xətlər yaratmaq siyasətinə xidmət etdiyini yaxşı bilirik. 2020-ci ildə 44 günlük müharibədə qazanılan Zəfərə, 2023-cü ildə Qarabağda həyata keçirilən 23 saatlıq antiterror tədbirinə görə BMT-də Azərbaycana qarşı sanksiya tətbiq etmək planları iflasa uğrayandan sonra indi ABŞ Konqresində ölkəmizin ünvanına ittihamlar səslənməkdədir. Qeyd edək ki, ABŞ Konqresinin bəzi üzvlərinin erməni lobbisinin tapşırığı ilə Azərbaycana qarşı başladıqları kampaniyada Dina Titusun “fəallığı” xüsusilə diqqət çəkir.

Erməni mediasının dünən tirajladığı xəbər okeanın o tayında yeni anti-Azərbaycan kampaniyasına start verildiyinə işarədir. “Artsax” ermənilərinə “hücumdan” sonra Azərbaycan 90 hərbi əsir, o cümlədən bir çox yüksək rütbəli erməni məmurunu həbsdə saxlayıb işgəncə verməkdə davam edir”. Bu diplomatik “intibahnaməni” ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Dina Titus özünün sosial şəbəkə hesabında yazıb. Titus bəyan edir ki, Konqres beynəlxalq hüququ pozduğuna görə Azərbaycanın məsuliyyətə cəlb edilməsi, ölkəmizə qarşı sanksiyalara yenidən baxılması üçün qanun layihəsi qəbul etməlidir.

*(ardı 3-cü səhifədə)*

# Olimpiya Oyunları prinsipləri “Paris – 2024”də pozulur



**Bakı Təşəbbüs Qrupu Olimpiya Oyunları prinsiplərinin “Paris-2024”də pozulmasına dair bəyanat yayıb. Sənəddə deyilir: “Prezident Emmanuel Makron və onun Hökuməti hazırda Fransada keçirilən “Paris-2024” Olimpiya Oyunlarını "sülh və ümid anı" kimi təqdim etsə də, Fransanın kolonial və neokolonial siyasəti bunun əksini deyir. Polineziya, Korsika, Melaneziya, Karib və Antil adalar qrupundan olan müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkat nümayəndələrindən əldə edilmiş məlumatlara əsasən, məşğulluq sektorunda və mənzillərin əldə edilməsinə çıxışda ayrı-seçkilik, eləcə də təbii sərvətlərin istismarı və ya məsələn, Fransa Hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya halları qeydə alınıb. Olimpiadanın ruhuna tamamilə zidd olan bir sıra halları diqqətinizə təqdim edirik:**

– Müvafiq ərazilərdə fransız monopolistlərinin xeyrinə olan zəif iqtisadi inkişaf strategiyası həyata keçirilir: əhalinin həddindən artıq ərzaq asılılığı (qida məhsullarının 80 faizindən çoxu Fransadan gəlir), həyat səviyyəsinin yüksək qiyməti, yoxsulluq (Fransız Qvianasında əhalinin 50 faizi yoxsulluq həddinin aşağında yaşayır) və hər cür iğtişaşlara (zorakılıq, silah və narkotik ticarəti) səbəb olan kütləvi işsizlik bu ərazilərin gələcəyini ciddi şəkildə təhlükə altına alır;

– 1989-cu il Yerli Xalqlara dair Konvensiyasının (No. 169) ratifikasiya edilməməsi (Fransız Qvianası);

– Artan təhlükə altında olan yerli dilləri arxa plana keçirən və yerli uşaqlara nə yerli tarixləri, nə coğrafiyası, nə mədəniyyətləri, nə də gələcəkləri ilə bağlı istəklərinə uyğun olmayan fransız tədris proqramlarını tətbiq edən fransız mədəniyyətinin hegemonluğunun qurulması və assimilyasiya siyasəti;

– Torpaqların zəbt edilməsi, - (Fransız Qvianası torpaqlarının 90 faizi Fransa dövlətinə məxsusdur), milyonlarla kvadratkilometr müstəsna iqtisadi zonaya (MİZ) nəzarət (Fransa sahəsi 11 milyon kvadratkilometr olan MİZ ilə dünyanın ikinci ən böyük dəniz gücüdür), on illər ərzində Fransadakı yerli xalqların gənclərinin deportasiya siyasəti Qvadelupa və Martinikdə görünməmiş demoqrafik böhrana səbəb oldu və təbii sərvətlərin talan edilməsinə böyük töhfə verdi, - təbii resurslarının talan edilməsi;

– Polineziyanın yenidən dekolonizasiya olunacaq ölkələr siyahısına daxil edildikdən sonra boş kreslo siyasəti;

– Yerli əhalinin Olimpiya Oyunlarında həm də öz ölkələrinin bayrağı altında çıxış etmələrindən imtina olunması;

– Müstəmləkəçi Qərb dövlətlərinin, xüsusən Hind-Sakit Okean zonasında (Polineziya, Yeni Kaledoniya), həm də Karib dənizi-Amerika zonasında və Korsikada (Solenzara bazası) müharibə hazırlığına geostrateji hərbi bazalar kimi yerli xalqların iradəsində zidd olaraq ərazilərdən istifadə edilməsi (Qviana, Martinika, Qvadelupa);

XXI əsrdə “sülh və ümid anı” olan Olimpiya Oyunları xalqları özünə tabe edən bir ölkədə keçirilə bilərmi?

Olimpiya Oyunlarına ev sahibliyi edən ölkə Kanakidə azadlığa qoyulan məhdudiyyətləri aradan qaldıra, həmçinin siyasi məhbusları azad edə bilməzdimi? Onların da öz evlərində azyaşlı uşaqları ilə birlikdə bu “sülh anı”nı yaşamaq hüququ var”.

# Mikayıl Cabbarov Gəncədə sahibkarlarla görüşüb



**İqtisadiyyat naziri Mikayıl Cabbarovun, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun və İqtisadiyyat Nazirliyinin aidiyyəti strukturlarının rəhbərlərinin iştirakı ilə Gəncə və ətraf rayonlarda yerləşən qeyri-neft sənayesi istehsalçıları və ixracatçıları ilə görüş keçirilib.**

Nazir sənaye müəssisələrinin yaradılması və bu sahədə idxaldan asılılığın azaldılması üçün reallaşdırılan tədbirləri diqqətə çatdırıb. Bildirilib ki, son illər aparılan islahatların nəticəsində güzəştli maliyyələşmə, kredit-zəmanət və faizlərin subsidiyalaşdırılması mexanizmlərinə çıxış imkanları genişləndirilib, investisiya təşviqi mexanizmi əhəmiyyətli dərəcədə təkmilləşdirilib, sənaye zonalarının inkişafı təşviq olunub, dövlətin yeni dəstək alətləri tətbiq edilib. Bununla belə, yeni çağırışlara uyğun olaraq tədbirlərin görülməsinə dair müzakirələrə ehtiyac var.

Sahibkarlarla qeyri-neft sənayesindəki inkişafı davam etdirmək, istehsal və ixracı artırmaq barədə fikir mübadiləsi aparılıb. İş adamları ilə xammalın keyfiyyəti, investisiya təşviqi, bank-maliyyə hesablaşmaları, daxili bazarın qorunması, kommunal xidmətlərdə differensial tariflər, dövlət satınalmaları, kredit resurslarına çıxış, ixtisaslı kadr potensialı kimi məsələlər müzakirə edilib. Sahibkarların təklifləri əsasında dövlətin dəstək və təşviq alətlərinin daha da təkmilləşdirilərək sistemli şəkildə davam etdiriləcəyi, sahibkarlığın bundan sonra da dəstəklənəcəyi diqqətə çatdırılıb.

Tədbir iştirakçıları görüşdən sonra dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin Sərəncamına əsasən inşa edilən Gəncə İdman Sarayında yaradılmış şəraitlə tanış olublar.

Belə görüşlərin davamlı olaraq digər bölgələrdə də keçirilməsi nəzərdə tutulur.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Gəncə şəhəri**

# Beynəlxalq səyyahlar Füzulidə






**Beynəlxalq səyyahlar Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində yerləşdirdiyi minaların azərbaycanlı istehkamçılar tərəfindən zərərsizləşdirilməsi prosesini izləyiblər.**

Səyahətçilər Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər çərçivəsində Füzuli rayonunun Horadiz kəndinə gəliblər.

Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) nümayəndələri qonaqlara işğaldan azad edilmiş ərazilərdə minalardan təmizlənmənin necə aparıldığını, hansı ərazilərin artıq təmizləndiyini və qarşıda hansı işlərin görülməli olduğu barədə məlumat veriblər.

Qonaqlara həmçinin daha əvvəl aşkar edilmiş və zərərsizləşdirilmiş tank əleyhinə minaların partladılması nümayiş etdirilib.

Xatırladaq ki, 35 nəfərdən ibarət beynəlxalq səyyahdan ibarət nümayəndə heyəti Azərbaycanın işğaldan azad edilmiş ərazilərində səfərdədir. Bu gün onlar Cəbrayıl rayonundakı Xudafərin körpüsündə olublar.

Səfər dünyaca məşhur MTP (Most Traveled People) təşkilatı tərəfindən təşkil edilib.

Son 4 ildə 50-yə yaxın ölkədən 360-dan çox beynəlxalq səyahətçi Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edib. Çarlz Veylinin başçılıq etdiyi bu qrupun səfəri sayca 11-ci olub.

Səfərdə 13 ölkədən - ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Norveç, İsveç, Portuqaliya, Filippin, Polşa, Macarıstan və başqalarından səyahətçilər iştirak edir.

***XQ***

# Muxtar Babayev Böyük Britaniya kralı ilə görüşdü



**COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Londonda “Clarence House”da Böyük Britaniya Kralı III Çarlz ilə görüşüb.**

Bu barədə COP29-un rəsmi “X” sosial şəbəkəsində qeyd olunub. Görüşdə COP sədrlikləri “Troyka”sına daxil olan COP28-in prezidenti Sultan Əl Cabir və Braziliyanın iqlim dəyişikliyi üzrə milli katibi Ana Toni iştirak ediblər.

Görüşdə COP sədrlikləri “Troyka”sı BƏƏ Konsensusu ilə yaranmış dinamikanı davam etdirmək və 1,5 hədəfinə çatmaq üçün göstərilən səyləri Kral III Çarlzla paylaşmaqdan məmnun və şərəf duyduğunu bildirib.

# Azərbaycan və Çad arasında əməkdaşlıq memorandumu

**Azərbaycan və Çad arasında gənclər və idman sahələrində əməkdaşlıq memorandumu imzalanıb.**



İmzalama mərasimi XXXIII Yay Olimpiya Oyunları çərçivəsində Parisdə fəaliyyət göstərən Azərbaycan Olimpiya evində olub.

Sənədi Azərbaycan gənclər və idman naziri Fərid Qayıbov və Çad Respublikasının gənclər və idman naziri Abakar Djermah Aumi imzalayıblar.

***XQ***

# Somalili nazir Sumqayıtda

**Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Ahmed Moallim Fiqi iyulun 27-də Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti ilə tanış olub.**



Azərbaycanın Efiopiyadakı səfiri Ruslan Nəsibovun iştirak etdiyi görüşdə İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini Elkiyar Ziyadov qonaqlara ölkəmizdə fəaliyyət göstərən sənaye zonaları, burada sahibkarlar üçün mövcud əlverişli investisiya imkanları barədə məlumat verib, İZİA-nın təqdimatı keçirilib.

Görüş çərçivəsində sənaye sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, sənaye zonası modelinin tətbiqinin üstünlükləri diqqətə çatdırılıb.

***XQ***

# IDEA-nın ekoloji yay düşərgəsi

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilən "Qafqaz bəbirlərinin mühafizəsi" layihəsi üzrə "Bəbirləri mühafizə edək!" adlı növbəti ekoloji yay düşərgəsi Lənkəranda keçirilib.**



IDEA İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi və Təhsil Nazirliyinin Respublika Uşaq Gənclər İnkişaf Mərkəzi tərəfindən “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində keçirilən düşərgəyə Lənkəran, Masallı və Astara rayonlarından ümumilikdə 30 məktəbli qoşulub.

"Bəbirləri mühafizə edək!" yay düşərgəsinin məqsədi məktəb yaşlarından gənclərin ətraf mühitlə bağlı maarifləndirilməsi, onlarda təbiətə sevgi hissinin formalaşdırılması və inkişaf etdirilməsi, Qafqaz bəbirinin məskunlaşdığı yerlərin yaxınlığında yaşayan məktəblilərin bu nadir növ haqqında məlumatlandırılması və onun mühafizəsi işinin təbliğ edilməsidir.

Düşərgədə məktəblilər Qafqaz bəbirinin qorunması, insan və ətraf mühit mövzularında seminarlarda, bəbirlərin yaşadığı təbii mühitə ekskursiyalarda, müxtəlif ekoloji tədqiqat və müsabiqələrdə iştirak ediblər.

***XQ***

# ABŞ Konqresində hayların "özfəaliyyət dərnəyi"

(əvvəli 1-ci səhifədə)

Müdriklər belə məqamda deyiblər: Adımı sənə qoyum, səni yana-yana qoyum. Bakının çoxdan bildiyi həqiqət odur ki, vaxtilə Qarabağ ermənilərinin tamhüquqlu vətəndaş kimi Azərbaycana reinteqrasiyasına qarşı çıxan, regionda monoetnikliyi dəstəkləyən təkcə Ermənistan hökuməti deyil, həm də Konqresin məlum üzvləri idi. İndi Bakıdakı müvəqqəti təcridxanada məhkəmələrini və cəzalarını gözləyən Xankəndidəki keçmiş separatçı-xunta rejiminin "məmurlarını", əlləri vətəndaşlarımıza qarşı törətdikləri hərbi və mülki cinayətlərə bulaşmış quldurlarını "hərbi əsir" sayan konqresmen Titus köhnə havaya oynamaqda davam edir. Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərkən bir dinc sakinin burnunun qanamadığı, bir evin aynasının belə qırılmadığı, yalnız hərbi obyektlərə zərbələr endirildiyi bölgəyə dəvət olunmuş BMT mütəxəssislərindən ibarət iki qrupun hesabatında aydınca göstərilib. Bu, ermənipərəst konqresmen və senatorların xoşuna gəlməmişdi. Ona görə səkkiz ay bundan əvvəl 66 konqresmen Nümayəndələr Palatasının Təxsisatlar Komitəsini Qarabağdan köçən ermənilərə 200 milyon dollar yardım ayırmağa, ABŞ-nin Ermənistana hərbi dəstəyini artırmağa, Azərbaycana bütün hərbi və təhlükəsizlik təsisatlarını dayandırmağa və azərbaycanlı "hərbi cinayətkarlara" qarşı sanksiyaların tətbiqinə baxmağa çağırmışdı. O vaxt ANKA-nın yaydığı məlumata görə, həmin məktub Nümayəndələr Palatasının alt komitəsinin sədri Mario Diaz-Ballarta və konqresmen Barbara Liyə göndərilmişdi.

* * *

Məsələnin maraq doğuran tərəfi də var. Qısa araşdırmadan sonra məlum oldu ki, anti-Azərbaycan sənədini hazırlayan Konqresin Tom Lantos İnsan Hüquqları Komitəsi, habelə Tom Lantos Fondu 32 il bundan əvvəl – 1992-ci ildə "Azadlığı dəstəkləmə Aktı"na 907-ci düzəlişin təşəbbüskarı və müəllifləridir. Yəni, təsəvvür edin ki, üstündən otuz ildən çox keçməsinə baxmayaraq, həmin Lantoslar ailəsinin "xidmətlərindən" yararlanan erməni diasporu Azərbaycana qarşı açıq-aydın siyasi şantaja əl atır. O da üzə çıxdı ki, Argentinanın zəngin iş adamı, "aviamaqnat" kimi tanınan Eduardo Ernekyanın başçılıq etdiyi Raul Vallenberq adına İnsan Hüquqları İnstitutu, eləcə də eyni adlı fond vahid şəbəkə halında hərəkət edərək, Azərbaycana qarşı sanksiyaları təşviq edir, beynəlxalq hüquq və məhkəmə strukturlarında mütəşəkkil cinayətkar dəstə, "beynəlxalq hüquq mafiyası" kimi durmadan əleyhimizə işləyirlər.



Deməli, erməni əsilli maqnat Ernekyanın "sonsorluğundan" gen-bol yararlanan konqresmen və senator "çete"si ABŞ qanunverici orqanında hayların lobbiçiliyini həyata keçirir. Bu "özfəaliyyət dərnəyi"nin də ifşa ediləcəyi, üzvlərinin layiqli cəzalarını alacaqları gün uzaqda deyil.



Diqqətimizi cəlb edən başqa bir fakt hay "züytutan"ı Dina Titusun yeddi ay əvvəl 41 azərbaycanlı zabit, məmur və hakimin adını "sanksiya siyahısına" təklif edəcəyi barədə açıqlamasıdır. Azərbaycanafob konqresmen bir qədər fikirləşib, siyahıya "44 azərbaycanlı məmurun" adını yazmışdı. Bu isə təsadüfi deyildi. Yəqin, konqresmen 44 rəqəmi ilə 44 günlük müharibədə Azərbaycanın qələbəsinə işarə vururdu. O, bununla həm də erməni lobbisinin pulundan asılı olduğunu və nə yolla olursa-olsun, Azərbaycanı öz ərazi bütövlüyünü təmin etdiyi üçün "cəzalandırmağa" çalışdığını ortaya qoyub.

Oxucuların yadına salaq ki, ermənipərəst konqresmenlərin atdığı addımlar İrəvandakı revanşist -separatçı ünsürlər və "artsax parlamenti" tərəfindən "minnətdarlıq hissi" ilə qarşılanmışdı. Hər şeydən göründüyü kimi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməsi, bölgədə söz sahibinə çevrilməsi, sülh platformasında dominant tərəf olması Ermənistanın ABŞ-dakı havadarlarına heç cür rahatlıq vermir. Əgər belə olmasaydı, özünü "demokratiyanın beşiyi" sayan ABŞ bir ovuc ermənininin əlində əsir-yesir olmaz, Kapitolidə qanun yazanların beynəlxalq hüquqa zidd addımlarının qarşısını alardı.

* * *

Bu, ABŞ-dakı ermənipərpəst konqresmen və senatorların ölkəmizə qarşı nə birinci, nə də axırıncı qərəzli davranışıdır. Bundan əvvəl də hayların yalanlarla və pulla zombiləşdirdiyi qaragüruh Konqresdə Azərbaycanın əleyhinə müxtəlif layihələrin qəbul edilməsinə çalışıb. Bir müddət bundan öncə konqresmen Adam Şiffin 47 tərəfdarı ilə Dövlət katibi Antoni Blinkenə məktubla müraciətinu unutmamışıq. Onlar müraciətlərində "Qarabağda kökü kəsilməkdə olan erməni irsi" ilə bağlı "narahatlıqlarını" bölüşmüşdülər.

Erməni lobbisinin puluna satılmış ABŞ qanunverici orqanındakı 26 nəfərlik heyətin (3 senator, 23 konqresmen) sonuncu anti-Azərbaycan təxribatı mayın 13-də Dövlət katibi Antoni Blinkenə və ABŞ Prezidentinin baş müşaviri Jon Podestaya ünvanladığı məktub oldu. Bu adamlar Azərbaycanın COP29-a sədrliyini əsassız və absurd ittihamlarla qaralamağa cəhd edirdilər. Məktubları cavabsız qalan ermənipərəst "çete" ardınca ABŞ liderini hədəfə aldı.

Amma artıq okeanın o tayında da ermənilərin zatına bələd olublar. Elə bu il aprelin 24-də ABŞ Prezidenti Cozef Baydenin "artsax" sözünü işlətməməsi ermənipərəst konqresmenlərin ona ünvanladıqları müraciətə cavab sayıla bilər. Bayden "Xankəndidə "etnik təmizləmə" iddiasını da diqqətdən çox uzaqda saxladı. Siz riyakarlığın miqyasına fikir verin ki, erməni lobbisinin və hay zövcəsinin güdazına gedən senator Bob Menendezin korrupsiya və vətənə xəyanətə görə qolları qandallanandan sonra Dina Titus kimi konqresmenlər Azərbaycanın ünvanına hədyanlar yağdırmağa cürət edirlər. Onlar üçün də "divarın qurtaracağı gün"ün gələcəyinə heç kəsin şübhəsi olmasın.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistan rəhbərliyinin xisləti dəyişmir

**Ermənistan tərəfi bölgədə sabitliyin pozulması istiqamətində əməllərindən əl çəkmir. Azərbaycan torpaqlarını uzun illər işğal altında saxlamış təcavüzkar dövlət son günlər yenə də təxribatçı addımlar atır. Əvvəlcə Basarkeçər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Silahlı Qüvvələrinin Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iriçaplı silahlardan atəşə tutan Hayastan ordusu bölmələrimizin adekvat cavab tədbirləri görməsi ilə yerlərində oturdulmuşlar.**

Bundan bir neçə gün sonra isə Ermənistana məxsus kvadrokopter ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərmişdi. Bu dəfə isə bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilmiş və o, ərazidən uzaqlaşdırılmışdır.

Bütün bunlar Azərbaycanla sülhdən dəm vuran Ermənistan rəhbərlərinin əməllərinin sülh istəyi ilə bir araya sığmadığından xəbər verir. Bunun ən bariz göstəricisi baş nazir Nikol Paşinyanın Avropa Siyasi Birliyinin iyulun 18-də Oksfordda keçirilən dördüncü sammitində Azərbaycan Prezidenti ilə görüşməkdən imtina etməsi oldu. Qeyd edək ki, birliyin bundan öncə Çexiyanın paytaxtı Praqa, Moldovanın paytaxtı Kişineu və İspaniyanın Qranada şəhərlərində keçirilən üç sammitindən ikisində Prezident İlham Əliyev iştirak etmişdi. Hər iki sammitdə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirilmişdi. İndi isə Paşinyanın Londonda qeyri-adekvat hərəkət edərək görüşdən imtina etməsi təəccüb doğurdu. İyulun 20-də II Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı bir çox məsələlərə dair fikirlərini bölüşən Prezident İlham Əliyev bu məqama da münasibət bildirdi. Dövlətimizin başçısı sülh sazişinin mətni üzərində danışıqların davam etdiyini dedi: "Bu gün mən daha az nikbinəm. Çünki bildiyiniz kimi, baş nazir Paşinyan mənimlə Britaniyada görüşməkdən imtina etdi. Bu, Britaniya hökumətinin təşəbbüsü idi. Təklif o idi ki, bizim aramızda belə bir görüş keçirilsin, həmin Oksford tədbiri çərçivəsində. Ermənistan tərəfi bu təklifi rədd etdi. Biz buna çox təəccübləndik, çünki dörd ay bundan əvvəl Kansler Şolts Münxen şəhərində bənzər görüş təşkil etmişdi. O, görüşdə iştirak edirdi, 5-6 dəqiqə ərzində bizimlə bir yerdə oldu, sonra otağı tərk etdi. Detallar bu idi. Belə bir format düşünülmüşdü ki, o, giriş sözündən sonra otağı tərk etsin. Beləliklə, görüşümüz ikitərəfli qaydada davam etdi. Britaniya hökuməti də eyni təklifi verdi. Görüşdə Britaniyanın Baş naziri iştirak edəcəkdi və sonra çıxacaqdı. Baş nazir Paşinyan bundan imtina etdi. Yəni, o, mənimlə danışmaq istəmirsə, hansı sülh sazişindən söhbət gedə bilər. O, Britaniyanın Baş naziri ilə danışmaq istəmirsə, Londona və Oksforda niyə səfər edirdi? Yəni, bir sıra məsələlərdə çox ciddi ziddiyyət var. Ancaq biz baxacağıq, dediyim kimi, mən Londondan dünən qayıtmışam. Bir istiqamət mətndir – sülh sazişinin mətni, digəri isə əlbəttə ki, dediyim kimi, Ermənistan konstitusiyasıdır".



Ölkəmizin Müdafiə Nazirliyi isə bir neçə gün öncə Ermənistanın təxribatçı addımları səbəbindən bəyanat yaymaq məcburiyyətində qaldı. Nazirlik bildirdi ki, Ermənistan tərəfindən bu kimi təxribatların törədilməsi birinci hal deyil və davamlı xarakter daşıyır. ABŞ-nin Ermənistanda keçirdiyi hərbi təlimlər, Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi və Avropa İttifaqı tərəfindən "Avropa Sülh Fondu" adı altında Ermənistana ilkin mərhələdə 10 milyon avro dəyərində hərbi yardımın göstərilməsi işğalçı Ermənistanı bu kimi təxribatlar törətməyə həvəsləndirir və Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırılmasına dəlalət edir. Müdafiə Nazirliyi bir daha xəbərdarlıq etdi ki, Ermənistan və onun havadarları Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq kimi niyyətlərindən çəkinməlidirlər. Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünümüdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcək. Eyni zamanda, regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşəcəyi qeyd edildi.



Rəsmi İrəvanın baş verənlərə dair yaydığı açıqlama isə əvvəlkindən fərqlənmədi. Hökumətin yaydığı məlumatda yenə də əvvəl səsləndirilən fikirlər təkrarlandı: "Ermənistan baş nazirinin aparatı atəşkəs rejiminin pozulması hallarının və ya onlar haqqında məlumatların araşdırılması üçün Ermənistan–Azərbaycan birgə mexanizminin yaradılması təklifini bir daha təsdiqləyir. Biz Ermənistan Respublikası hökumətinin artıq əldə edilmiş ictimai razılaşmalar çərçivəsində sülh gündəliyinə sadiqliyini bir daha təsdiqləyirik".

Ermənistan xarici işlər nazirliyi isə yaydığı açıqlamada yalanlar seriyasını davam etdirməyə çalışıb. Qeyd edilib ki, Azərbaycan Müdafiə Nazirliyinin Ermənistanın növbəti müharibəyə hazırlaşdırılmasına dair fikirləri doğru deyil. Hayastanın xarici siyasət idarəsi öz əməllərini bizim adımıza çıxaraq ölkəmizi vəziyyəti gərginləşdirməkdə (?) ittiham edib. Onlar, həmçinin aldıqları yeni silah-sursatların müdafiə məqsədi daşıdığını bildiriblər. Bundan başqa "Azərbaycanın cavab vermədiyi" (?) atəşkəsin pozulması hallarının araşdırılması üçün ikitərəfli mexanizmin yaradılması təklifi xatırladılıb.

Bu arada nüfuzlu "Fitch Ratings" reytinq agentliyi Ermənistan və Azərbaycan arasında genişmiqyaslı eskalasiya riskinin gözlənilmədiyini bildirib. Məlumat agentliyin iki ölkənin iqtisadi inkişafı ilə bağlı proqnozlarında əksini tapıb. Lakin ekspertlər sülh sazişinin əldə edilməsinin çətin olacağını düşündüklərini vurğulayıblar. Agentliyin baza ssenarisinə görə, iki ölkə arasında, hətta, vaxtaşırı atışmaların olması nəzərə alınsa belə, ciddi eskalasiya gözlənilmir. Onu da qeyd edək ki, Ermənistanla bağlı hesabatda, həmçinin qeyd olunur ki, Rusiya ilə siyasi münasibətlərin pisləşməsinə baxmayaraq, ölkələr arasında iqtisadi əlaqələr güclü olaraq qalır və Ermənistanın Rusiya Federasiyasından enerji asılılığı çox yüksəkdir.

Diqqəti Ermənistanın regionda sülh və sabitlikdə, təhlükəsizliyin təmin olunmasında və əməkdaşlıqda maraqlı olmadığını göstərən daha bir nüansa yönəltmək istərdik. İrəvan xarici işlər nazirlərinin "3+3" formatında Türkiyədə keçiriləcək görüşündə iştirakla bağlı hələ qərar verməyib. Ararat Mirzoyanın başçılıq etdiyi nazirliyin "Sputnik Ermənistan"ın yazılı sorğusuna verdiyi cavab əsasında bu qənaətə gəlmək olar.

Qeyd edək ki, bundan əvvəl İranın Ermənistandakı səfiri Mehdi Sübhani "3+3" formatında xarici işlər nazirlərinin növbəti görüşünün yaxın vaxtlarda Türkiyədə keçiriləcəyini bildirmişdi. "3+3" regional platformasının üçüncü iclasında Ermənistanın mümkün iştirakı ilə bağlı konkret razılaşmalar olarsa, bu barədə ictimaiyyətə məlumat veriləcək" – deyə Ermənistan XİN-dən bildiriblər.

Xatırladaq ki, "3+3" qrupunun, əslində, Gürcüstan platformanın işində iştirak etmədiyi üçün "beşliy"in (Azərbaycan, Türkiyə, Rusiya, İran və Ermənistan) ilk iclası 2021-ci ilin dekabrında Moskvada xarici işlər nazirlərinin müavinləri səviyyəsində keçirilmişdi. İkinci görüş isə beş ölkənin nazirlərinin iştirakı ilə 2023-cü ilin oktyabrında İranda baş tutmuşdu. Azərbaycanla sülhün əldə olunmasında maraqlı olmayan rəsmi İrəvanın "3+3" formatından boyun qaçırması Ermənistan rəhbərliyinin əsl xislətini üzə çıxaran məqamdır. Onlar bir daha öz mahiyyətlərinə sadiq qalaraq, bütövlükdə, bölgədə sabitlikdə, əmin-amanlıqda və əməkdaşlıqda maraqlı olmadıqlarını ortaya qoyurlar.

**Situasiyanı şərh edən tanınmış gürcü politoloq Gela Vasadze deyib ki,** Ermənistanın nəyə can atdığı tam aydındır.



İrəvanın son adımlarını şərh edən politoloq deyib: "Ermənistan 44 günlük müharibədə hərbi potensialının çox böyük hissəsini itirib və indi bunu bərpa etməyə çalışır. Burada digər sual ondan ibarətdir ki, onlar bunun üçün düzgün vaxtı seçiblərmi? Mən buna şübhə edirəm".

Politoloq qeyd edib ki, söhbət sülh müqaviləsinin imzalanması ərəfəsindən gedir. Cənubi Qafqazın iki ölkəsi sülhə heç vaxt bu qədər yaxın olmayıb. Amma Ermənistan həm də güclü orduya sahib olmaq istəyir. Bu isə sülh müqaviləsinin ziddinədir.

***Səxavət HƏMİD***
***XQ***

# Gürcüstanda anti-Rusiya ovqatı yaratmaq cəhdləri: tarix və bu gün

## *Şalva Papuaşvilinin dedikləri və demədikləri*

**Müxalifət Ukraynaya dəstək göstərilməsini təklif etməklə, Gürcüstanı Rusiya ilə müharibəyə sürükləmək istəyirdi. Bu fikrin müəllifi Gürcüstan Parlamentinin spikeri Şalva Papuaşvilidir. Əslində, cənab Papuaşvilinin bildirdikləri yenilik deyil. Ancaq məsələnin gündəmə gəlməsinin özü maraqlıdır. Hər halda spiker mövzuya heç də elə-belədən yer verməz.**



Bəli, Rusiya–Ukrayna müharibəsi fonunda Gürcüstanda da anti-Rusiya ovqatının formalaşdırılması cəhdləri qeydə alınıb. Bir məsələ də var ki, bu cəhdlər İkinci Qarabağ müharibəsi dönəmində də olub. Həmin vaxt Qərb dairələri gürcü hökumətinin üzvlərinə təxminən belə bir fikri aşılayırdılar: gördünüz, Azərbaycan müharibə aparıb, öz torpaqlarını işğaldan qurtardı, siz də eyni şeyi edin.

Ancaq o zaman Qərb Gürcüstana real dəstək verməmişdi. Hiss olunmuşdu ki, Qərbin məqsədi, sadəcə, siyasi təxribat və reaksiyaları yoxlamaqdır. Əlbəttə, gürcü iqtidarı boş vədlərə uymadı və uya da bilməzdi. Həm də ona görə uymadı ki, yaşanılmış acı təcrübə vardı və bu barədə söz açacağıq. Hələlik isə...

Təsəvvür edin ki, bir yandan Azərbaycanın əzmini Gürcüstana nümunə kimi sırımağa cəhd göstərən Qərb dairələri, digər yandan ölkəmizin və xalqımızın 44 günlük müharibədəki rəşadətini işğalçılıq qismində qələmə verir, Bakını dayandırmaq, haqq yolundan döndərmək naminə müxtəlif sanksiyaların tətbiqinə nail olmağa çalışırdılar. Bunun bir adı var idi – riyakarlığa söykənmiş ikili standartlar siyasəti. Təəssüf ki, bu siyasət indinin özündə də davam edir. İkili standartlardan söz düşmüşkən, həmin Qərb dairələri Gürcüstanda xarici agentlər haqqında qanun müstəvisində hakimiyyətə qarşı çıxan qüvvələrin davranışlarını gürcü xalqının əzmi kimi göstərdikləri halda, Ermənistandakı narazılıq dalğasını qanuni iqtidarın devrilməsi olaraq dəyərləndirirdilər.

Bəli, diqqətə çatdırdıqlarımızı nəzərə alsaq, Ş.Papuaşvilinin söylədikləri aktuallığını qoruyur. Çünki Gürcüstanı anti-Rusiya geosiyasi savaşının elementinə çevirmək cəhdləri var və olub. Qərb istəyib ki, Ermənistan kimi, Gürcüstan da Rusiyanın Cənubi Qafqazdan sıxışdırılmasında mühüm rol oynasın. Mövcud məsələdə Ukrayna müharibəsi yaxşı fürsət sayılırdı. Elə ona görə də Gürcüstanın Qərbyönümlü müxalifəti çalışırdı ki, rəsmi Tbilisi Kiyevi dəstəkləsin. Kiyevi dəstəkləmək isə Ukraynanın gününə düşmək perspektivi vəd edirdi. Nəzərə alaq ki, Gürcüstan Ukrayna deyil. Yəni, istər əhali potensialı, istərsə də digər parametrlər üzrə birinci ikincidən xeyli geri qalır. Bu isə onun Kremlə qarşı dirəniş əzmi baxımından mühüm məqamdır. Məlumdur ki, Gürcüstan hazırda Ukraynanın etdiklərini heç bir anlamda təkrarlaya bilməz.

İndiki durumda Cənubi Qafqazda anti-Rusiya dirənişinin yeganə aləti qismində çıxış edən Ermənistandır. Ölkə iqtidarı hər vəchlə Kremlin səbr kasasını daşdırmaq, onu qeyri-standart addımlara vadar etmək yolunu tutur. Belə təmayüllər bilavasitə Qərbin diktəsi ilə gerçəkləşdirilməkdədir. Deməli, bir neçə gün əvvəl Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Ermənistanı ikinci Ukraynaya çevirmək cəhdlərinin mövcudluğundan heç də əbəs yerə söz açmamışdı. Əslində, onun fikirlərində rəsmi İrəvana dərin xəbərdarlıq motivi var idi. Əlbəttə, Ermənistan rəhbərliyi bu xəbərdarlığı nəzərə almayacaq qədər havalıdır. Baş nazir Nikol Paşinyan və komandasında yer alanların dilə gətirdikləri fikirlər bunu söyləməyə əsas verir.

Bəli, Ş.Papuaşvilinin bildirdikləri Qərbin Ermənistan kimi, Ukrayna müharibəsi fonunda Gürcüstanı da anti-Rusiya cəbhəsində görmək istəklərinin mövcudluğundan xəbər verməkdədir. O deyir ki, bir neçə dəfə ölkəsindəki müxalif partiyalar Ukraynaya silah-sursat göndərilməsi, Rusiyaya qarşı döyüşmək üçün könüllü dəstələrin yaradılması, eləcə də Kremlə sanksiyaların tətbiqi ilə bağlı əsassız təkliflər səsləndiriblər: "Hətta NATO ölkələri belə Ukraynaya silah-sursat tədarükü zamanı "qırmızı xətti" keçməməyə çalışır. Çünki belə olduqda Rusiya onları da münaqişə tərəfi kimi tanıyacaq".

Yəni, cənab Papuaşvili deyir ki, Qərb Gürsüstanı, necə deyərlər, Roma papasından daha artıq katolik qiyafəsində görmək istəyir. Onun yerli aləti isə ölkə müxalifətidir. Onu da deyək ki, Qərbin Gürcüstanı anti-Rusiya cəbhəsində görmək istəkləri indinin söhbəti deyil. Bir vaxtlar Gürcüstan bu baxımdan Ermənistandan daha irəlidə idi. 2004-cü ilin "Qızıl gül inqilabı" dönəmini xatırlayaq. Həmin vaxt Gürcüstan nəinki regionda, bütövlükdə, postsovet məkanında rəngli inqilablar dalğasının, anti-Rusiya dirənişinin mərkəzi sayılırdı. Prezident Mixeil Saakaşvili bu xətti indi baş nazir Nikol Paşinyanın gerçəkləşdirdiyindən daha böyük əzmlə reallaşdırırdı. Saakaşvili o qədər populyarlaşmışdı ki, sonda ölkəsinin Rusiyaya qarşı açıq şəkildə çıxmaq gücünü də hiss etdi. Beləliklə, 2008-ci ilin Rusiya–Gürcüstan müharibəsi baş vermişdi. Haqqında söz açacağımızı bildirdiyimiz acı keçmiş də elə bu savaşdır.

Rusiya–Gürcüstan müharibəsinin təfərrüatlarına varmaq niyyətindən uzağıq. Buna ehtiyac da yoxdur. Həm də ona görə ki, reallıq o zaman da, indi də Gürcüstan ərazisinin işğalda olduğu, həmin ərazidə separatçı rejimin mövcudluğunu təsdiqləyir və belə bir durum yolverilməz və dözülməzdir. Ancaq vəziyyətin dözülməzliyini aradan qaldırmaq üçün rasional düşüncə mütləqdir. Təəssüf ki, 2008-ci ildə gürcü iqtidarı bunu nəzərə almadı və Qərbin təhriki ilə hərəkət etdi. Nəticə isə məlumdur. Rus qoşunları əks hücuma keçərək, Gürcüstanın bir çox şəhər və kəndlərini ələ keçirdilər, paytaxt Tbilisinin həndəvərinə çatdılar.

Belə bir durumda Qərb nə etdi? Gürcüstana hansısa dəstək göstərə bildimi? Xeyr! Yalnız o zamankı Fransa Prezidenti Nikola Sarkozi Rusiya Prezidenti Vladimir Putinin qapısı arxasında qalaraq, güclə onun qəbuluna düşdü və yalvar-yaxardan sonra Rusiyanı sakitləşdirməyə müvəffəq oldu. Bəli, hazırda Ş.Papuaşvili gürcü müxalifətinin anti-Rusiya övqatını körükləməsi niyyətindən söz açarkən, həmin əks siyasi qütbün, əslində, eyni zamanda, haqqında söz açdığımız qorxunc ssenarinin təkrarlanmaması naminə zəmin hazırladığını da vurğulayır.

***Ə.RÜSTƏMOV***
***XQ***

Replika

# Dünyaya sülh jesti

## Paşinyan Bakının dəvətindən özünə "press-şou" düzəldir

**Bu dəvət, sadəcə, BMT-nin ekoloji toplantısına deyil, sülhə çağırış kimi qəbul olunmalıdır. Və Bakı belə bir jesti hələ də rəsmi diplomatik əlaqələrə malik olmadığı İrəvana onilliklər boyu sürən münaqişəyə son qoymaq məqsədi daşıyan sülh prosesi fonunda edib. Azərbaycan bu addımı atmaqla həm də qoşulduğu beynəlxalq müqavilələrin, konvensiyaların prinsip və şərtlərinə, oyun qaydalarına riayət edən ölkə olduğunu bir daha sübuta yetirdi.**



Azərbaycanın ilk dəfə evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi Konvensiyasının 29-cu Tərəflər Konfransının (COP29) prezidenti, Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin Ermənistanın xarici işlər nazirinə göndərdiyi dəvət məktubu erməni mediasında müzakirə mövzusu olaraq qalmaqdadır.

Ortada Bakının müasir dünyanın çağırışlarına inklüziv yanaşması, keçmiş münaqişəyə, umu-küsüyə baxmayaraq, ayrı–seçkiliyə yol verməməsi kimi yüksək bəşəri keyfiyyətlərinin nümayişi var. Bu nüfuzlu beynəlxalq tədbirdə dünyanın siyasət nəhəngləri ilə yanaşı iştirak etmək ekspertlərdən birinin açıqlamasıdır. Hay mediasının Paşinyanın avqustda mətbuat konfransı keçirəcəyi və COP29-da iştirak etmək üçün Bakıya gedib-getməməsi məsələsinə aydınlıq gətirəcəyi barədə yaydıqları məlumatlar şou xarakterli xəbərlərə bənzəyir. Suala çoxsaylı müsbət və mənfi cavabların verildiyi açıqlamalarda bəzi blogerlər Nikol Paşinyanın özünü "ağır oturub batman gələn kişi", hələlik rəqibini "intizarda saxlamağı" bacaran diplomat kimi aparmasından bəhs edirlər. Bu mövqenin tərəfdarları anlamaq istəmirlər ki, baş nazirlərinin COP29 tədbirinə gəlib-gəlməyəcəyi Bakı üçün ciddi əhəmiy-




iki ölkə arasında münasibətlərin nizamlanmasının, hətta sülh sazişinin imzalanmasının hüdudlarından xeyli kənara çıxır. Tarixi məqamın düzgün dəyərləndirilməsi siyasi uzaqgörənliklə yanaşı, həm də yüksək şəxsi, mənəvi keyfiyyətlər tələb edir. Bu mənada, Bakının evsahibliyi edəcəyi möhtəşəm toplantıya İrəvanı dəvət etməsi dünyaya sülh jestinin nümayişidirsə, bu tədbirdə iştirak edib-etməmək Paşinyan üçün, bir növ, test imtahanıdır. Onun bu imtahandan üzüağ çıxması öz imicinə müsbət xal qazandırmaqla yanaşı, ölkəsinin mənafeyinə yalnız fayda gətirə bilər.

"Hər şey o zamankı mövcud siyasi vəziyyətdən asılı olacaq". Bu, erməni siyasi yət kəsb eləmir. Əslində, bu dəvət özünü dünyanın 100-dən çox dövlətinin lideri arasında görmək imkanı qazanacaq Ermənistanın baş naziri üçün böyük önəm kəsb etməlidir.

Başa düşürük, kənardan idarə olunan Paşinyan üçün Bakının, bir növ, test-sual mahiyyəti kəsb edən dəvətinə dərhal cavab vermək elə də asan deyil. Görünən odur ki, onun dəvətlə bağlı hansı qərarı qəbul edəcəyindən həm sülh danışıqlarının sonrakı dinamikası, həm də ölkələrarası münasibətlərin nizamlanması prosesinin perspektivi, birbaşa olmasa da, dolayısı ilə asılıdır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Naxçıvan xəbərləri



## 600-dən yuxarı bal toplayan abituriyentlərlə görüş keçirilib

Naxçıvan Dövlət Universitetində 600-dən yuxarı bal toplayan abituriyentlərlə görüş keçirilib. Görüşdə Naxçıvan Dövlət Univesitetinin rektoru Elbrus İsayev və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov iştirak ediblər.

Univesitetin rektoru Elbrus İsayev ali təhsil ocağı haqqında ətraflı məlumat verib, universitetin beynəlxalq əlaqələri, Türkiyənin nüfuzlu ali təhsil müəssisələri arasında imzalanan əməkdaşlıq memorandumları, ikili diplom layihələri, peşəkar xarici mütəxəssislərin tədris prosesinə cəlbi, eləcə də müasir tədris texnologiyalarının tətbiqi, ingilisdilli ixtisasların sayının artırılması haqqında danışıb.

Diqqətə çatdırılıb ki, 2023-2024-cü tədris ilində universitet tərəfindən xüsusi təqaüd proqramı tətbiq edilərək 600-649 arası bal toplayanlara 1 il ərzində 200 manat, 650-dən yüksək bal toplayan tələbələrə isə 1 il ərzində 250 manat təqaüd verilməsi nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov universitetlər arasında rəqabət mühitinin formalaşmasında abituriyentlərin rolundan bəhs edib. Diqqətə çatdırılıb ki, ötən illər ərzində Dövlət İmtahan Mərkəzinin həyata keçirdiyi qəbul imtahanlarındakı göstəricilərə görə muxtar respublika məktəbləri ölkə üzrə 2-ci yerdə qərarlaşıb. İxtisas seçimində diqqət olunmalı məqamlardan danışan təhsil naziri tələbəlik dövründə də elmi yolda əzmlə çalışmağın önəmini qeyd edib və abituriyentlərə müvəffəqiyyətlər arzu edib.

Sonra yüksək bal toplayan abituriyentlərə hədiyyələr təqdim edilib. Abituriyentlər universitetdəki maddi-texniki baza ilə yaxından tanış olublar.

## Naxçıvanda biznesə güzəştli maliyyələşmə dəstəyi

Bu mövzuda Naxçıvan Biznes Mərkəzində keçirilən konfransda Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Abbas İsmayılov, Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun idarə heyətinin sədri Osman Xalıyev, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev, qurumların nümayəndələri və Naxçıvan Muxtar Res-



publikasında fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

Çıxış edənlər bildiriblər ki, Naxçıvanda 10-a yaxın bankın iştirakı ilə keçirilən bu tədbirin məqsədi maliyyə resurslarına əlçatanlığın təmin olunması məqsədilə kredit təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi, sahibkarların güzəştli kreditlərin verilməsi qaydaları ilə ətraflı tanış edilməsi, muxtar respublikanın investisiya mühitinin tanıdılmasıdır.

Qeyd olunub ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamət müəyyən olunub. 2024-cü il üçün 4 əsas istiqamət - aqrar sahə, turizm, nəqliyyat-logistika, yaşıl enerji, həmçinin sənaye, o cümlədən emal sənayesi və real sektorun digər sahələri əsas prioritetlərdəndir. İqtisadiyyat Nazirliyi yeni iş yerlərinin, əlavə dəyər yaradan sahələrin maliyyələşdirilməsində maraqlıdır.

Diqqətə çatdırılıb ki, muxtar respublikada kredit borclarının geri qaytarılmasının sürətləndirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilib. Sahibkarlığın İnkişafı Fonduna öhdəlik olaraq vaxtında qaytarılmalı, lakin qaytarılması təmin edilməyən vaxtı keçmiş kreditlərin məbləği bu il yanvarın 1-nə 16 milyon manata yaxın olubsa, iyulun 1-nə 10,1 milyon manat və yaxud 63,5 faiz az – 5,8 milyon manat olub. Nəticədə fondun ehtiyatlarının qalıq məbləği 2,4 dəfə artaraq 6,7 milyon manatdan 16,1 milyon manata çatıb.

Tədbirdə fondun iş adamlarına təqdim etdiyi mexanizmlər üzrə geniş təqdimatlar sahibkarların diqqətinə çatdırılıb. Həmçinin Naxçıvanın turizm, aqrar, ixrac, nəqliyyat-logistika potensialı və digər mövzular ətrafında müzakirələr aparılıb.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***



# Milli Məclisə seçkilərə 34 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**İyulun 27-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın iyulun 24-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası Komissiya üzvləri tərəfindən müzakirə edilərək təsdiqlənib.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 6 milyon 516 min 567 seçki bülleteninin Komissiyanın təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında hazırlanmasına qərar verib.

İclasda, həmçinin qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş vəzifə və səlahiyyətlərə malik qurumlarla sıx əməkdaşlıq çərçivəsində intensiv şəkildə davam etdirilən ümumrespublika miqyaslı maarifləndirmə tədbirləri barədə ətraflı məlumat verilib, deputatlığa namizədlərin irəli sürülməsi və qeydə alınması, o cümlədən müşahidəçilərin akkreditasiyası ilə bağlı statistik göstəricilər diqqətə çatdırılıb.

Media subyektləri tərəfindən geniş işıqlandırılan iclasın sonunda cari məsələlərə də baxılıb.

# 87 nəfər deputatlığa namizəddir

**Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1255 nəfər müraciət edib. Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov komissiyanın dünən keçirilən iclasında məlumat verib. O, bildirib ki, müraciət edənlərdən 454 nəfərin namizədliyi 25 siyasi partiya tərəfindən irəli sürülüb. 1141 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib.**

MSK sədri onu da qeyd edib ki, deputatlığa namizədliyini irəli sürənlərdən 1092 nəfəri imza vərəqəsi alıb, 388 nəfər isə imza vərəqələrini qaytarıb.

İyulun 27-dək 87 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

# Asayiş keşikçilərinin seçkilərdə əsas vəzifələri



**Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində Şəki şəhərində regional seminar-müşavirə keçirilib.**

Seminar-müşavirədə MSK-nın və Daxili İşlər Nazirliyinin nümayəndələri, ölkənin şimal-qərb bölgəsində, eləcə də ətraf şəhər və rayonlarda fəaliyyət göstərən 17 seçki dairəsi üzrə dairə seçki komissiyalarının sədrləri, şəhər və rayon polis şöbələrinin məsul işçilləri iştirak ediblər.

Tədbirdə MSK-nın üzvü Bəxşeyiş Əsgərov və Şəki Şəhər Rayon Polis Şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı Tural Məmişov çıxış ediblər. Onlar Milli Məclisə seçkilərin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsində, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsində ictimai asayişin qorunmasının mühüm amillərdən biri olduğunu vurğulayıblar.

Sonra MSK-nın üzvü Tofiq Həsənov “Seçki subyektləri, onların hüquq və vəzifələri. Seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi” mövzusunda çıxış edib. Bildirilib ki, MSK Milli Məclisə seçkilər ərəfəsində maarifləndirmə tədbirlərinə xüsusi diqqət ayırır.

Seminar-müşavirədə daha sonra Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Sənan Əliyev “Seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri. Seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi” mövzusunda çıxış edib. O, diqqətə çatdırıb ki, seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün dairə və məntəqə seçki komissiyaları nümayəndələrinin polisin fəaliyyəti ilə bağlı qaldırdıqları bütün məsələlər operativ qaydada həll olunacaq.

# Seçki sənədlərinin təqdimi avqustun 2-si başa çatır

**Deputatlığa namizədliyin qeydə alınması üçün zəruri seçki sənədlərinin DSK-lara təqdim edilməsi müddəti gələn həftə bitir.**

Bu, Mərkəzi Seçki Komissiyasının (MSK) “Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”nda öz əksini tapıb. Sənəddə qeyd edilib ki, bu proses iyulun 13-dən başlanıb və avqustun 2-si saat 18:00-dək davam edəcək.

Seçki Məcəlləsinə əsasən, irəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18.00-dək müvafiq seçki komissiyasına aşağıdakı seçki sənədlərini təqdim etməlidir:

1. irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri;
2. seçici imzaları toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokolun 2 nüsxəsi;
3. Məcəllənin 53.3-cü və 54.8-ci maddələrinə uyğun olaraq namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər barədə bildiriş;
4. namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat;
5. mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat;
6. namizədin ilkin maliyyə hesabatı (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsait haqqında məlumatlar göstərilməklə).



Qeyd edək ki, Prezident İlham Əliyev iyunun 28-də VI çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib.

# Mərkəzi Seçki Komissiyasının 2024-cü il 24 iyul tarixli iclas protokolunun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 24 iyul tarixli iclasının protokolu təsdiq edilsin.

*Sədr Məzahir PƏNAHOV*
*Katib Arifə MUXTAROVA*
*Katib Mikayıl RƏHİMOV*

# 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 99.1-99.4-cü və 166-cı maddələrinin tələbinə görə, seçki bülletenlərinin mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) qərarı ilə səsvermə gününə ən geci 35 gün qalmış təsdiq edilməli, qeydə alınmış seçicilərin sayının 3 faizindən artıq olmamaq şərtilə, səsvermə gününə ən azı 10 gün qalmış Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin müşahidəsi altında müvafiq qaydada hazırlanmalıdır.

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə istifadə ediləcək seçki bülletenləri ilə əlaqədar yuxarıda göstərilən qayda və şərtlər əsas götürülməli, mövcud seçki dairələri üzrə həmin bülletenlərin bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnməli, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilməli, qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, emblemi, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü, 99-cu və 166-cı maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə mövcud seçki dairələri üzrə bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnmiş, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilmiş, habelə qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, emblemi, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilmiş seçki bülleteninin mətni və forması təsdiq edilsin.

2. Ölkə üzrə qeydə alınmış seçicilərin ümumi sayından 3 faiz artıq olmamaqla, cəmi 6 516 567 (altı milyon beş yüz on altı min beş yüz altmış yeddi) ədəd seçki bülleteni Mərkəzi Seçki Komissiyasının təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında müvafiq poliqrafiya müəssisəsində hazırlansın.

3. Bu Qərarın icrası öz səlahiyyətləri daxilində Mərkəzi Seçki Komissiyasının Katibliyinə həvalə edilsin.

4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

*Sədr Məzahir PƏNAHOV*
*Katib Arifə MUXTAROVA*
*Katib Mikayıl RƏHİMOV*

# Seçki xəbərləri



## 2794 müşahidəçi akkreditasiyadan keçib

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 1 sentyabr növbədənkənar parlament seçkilərində müşahidəçi qismində iştirak etmək üçün, ümumilikdə, 2794 nəfərin akkreditasiyadan keçdiyini bildirib. Sədr əlavə edib ki, müşahidəçilərdən 2562 nəfəri MSK-da qeydiyyatdan keçib. Onların 126-sı Yeni Azərbaycan Partiyasının, 569-u QHT-lərin xətti, 1867 nəfəri isə öz təşəbbüsü ilə müraciət edib.

## 6 milyon 516 min 567 seçki bülleteni çap ediləcək

“Növbədənkənar seçkilərlə əlaqədar 6 milyon 516 min 567 seçki bülleteni çap ediləcək”. MSK sədrinin müavini Rövzət Qasımov onu da bildirib ki, komissiyanın iclasında növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçki bülletenlərinin hazırlanması qaydasına, mətninə, formasına və sayına aid tələbləri təsdiqlənib.

## Ombudsman Aparatı maarifləndirmədə iştirak edir

Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə, növbədənkənar parlament seçkiləri ilə əlaqədar İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatı və MSK tərəfindən birgə maarifləndirmə tədbirləri keçiriləcək.

## Müddət başa çatdı

Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması məqsədilə seçici siyahılarının məlumat lövhələrində yerləşdirilməsi üçün ayrılan müddət dünən başa çatıb.

Seçki Məcəlləsinin 48.1-ci maddəsinə əsasən, məntəqə seçki komissiyaları səsvermə gününə azı 35 gün qalanadək seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması məqsədilə seçici siyahılarının məlumat lövhələrində yerləşdirilməsini təmin etməlidirlər. Bu müddət 2024-cü il iyulun 28-dək olan dövrü əhatə edir.

**Səhifəni hazırladılar:**
**Əliqismət BƏDƏLOV,**
**Səxavət HƏMİD**
**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 349** **Bakı şəhəri, 20 iyul 2024-cü il**

**“Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1043-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2431 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1043-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 20 may tarixli 53 nömrəli Qərarı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 2, maddə 242; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 275 nömrəli Qərarı) ilə təsdiq edilmiş Əlavə 1 – “Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamə”nin “1. Müharibə veteranları” hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. doqquzuncu abzasda və “Qeyd”in 2-ci bəndinin üçüncü abzasına “Ağdam” sözündən sonra “Ağdərə,” sözü əlavə edilsin;

1.2. onuncu abzasda “Tərtər” sözü “Ağdərə” sözü ilə əvəz edilsin.

2. “Azərbaycan Respublikasında torpaqların yeni normativ qiymətinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 477( Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş “Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti” cədvəlinin 8-ci, 12-ci və 24-cü bəndlərinin “Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar” sütunundan “keçmiş” sözü çıxarılsın;

2.2. həmin Qərarla təsdiq edilmiş “Kadastr qiymət rayonlarına və yarımrayonlarına daxil olan inzibati rayonların torpaqlarının normativ qiymətinin hesablanması üçün tətbiq edilən təshih əmsalları” cədvəlinin 8-ci və 12-ci bəndlərinin “Kadastr qiymət rayonları, yarımrayonları və ora daxil olan inzibati rayonlar” sütunundan “Keçmiş” sözü çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 881 ( Cild I) ilə təsdiq edilmiş “Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları” cədvəlinin 8-ci və 12-ci bəndlərinin “Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar” sütunundan “keçmiş” sözü çıxarılsın.

4. “Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 ( Cild I); 2024, № 2, maddə 236; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 237 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı”nın “Memarlıq abidələri” bölməsinin 10-cu bəndinin “Yerləşdiyi ünvan” sütununda “Kəlbəcər rayonu” sözləri “Ağdərə rayonu” sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı” üzrə:

4.2.1. “Memarlıq abidələri” bölməsinin “Kəlbəcər rayonu” hissəsindən 268-280, 1228 və 1229 inventar nömrəli obyektlər çıxarılsın;

4.2.2. “Memarlıq abidələri” bölməsinin “Ağdam rayonu” hissəsindən sonra aşağıdakı məzmunda “Ağdərə rayonu” hissəsi əlavə edilsin:

“Ağdərə rayonu

| | | | |
|---|---|---|---|
| 204-1. | Xanabert qalası | | Vəngli kəndi |
| 204-2. | Müqəddəs Yaqub kilsəsi | 635-ci il | Kolatağ kəndi |
| 204-3. | Alban məbədi | 614-cü il | Kolatağ kəndi |
| 204-4. | Qala | | Çapar kəndi |
| 204-5. | Alban məbədi | XII əsr | Çıldıran kəndi |
| 204-6. | Qırmızı məbəd | XIII əsr | Çıldıran kəndi |
| 204-7. | Alban məbədi | X əsr | Çormanlı kəndi |
| 204-8. | Alban kilsəsi | XI əsr | Çormanlı kəndi |
| 204-9. | “Xatırvank” məbədi | 1204-cü il | Qozlu kəndi |
| 204-10. | Alban məbədi | 698-ci il | Yayıçı kəndi |
| 204-11. | Alban məbədi | 672-ci il | Yayıçı kəndi |
| 204-12. | Məbəd | 1283-cü il | Həsənriz kəndi |
| 204-13. | Alban məbədi | 500-cü il | Həsənriz kəndi |

4.2.3. “Arxeoloji abidələr” bölməsinin “Ağdam rayonu” hissəsindən sonra aşağıdakı məzmunda “Ağdərə rayonu” hissəsi əlavə edilsin:

“Ağdərə rayonu

| | | | |
|---|---|---|---|
| 701-1. | Dovşanlı nekropolu | son tunc – ilk dəmir dövrü | Dovşanlı kəndi |
| 701-2. | Balıqaya nekropolu | son tunc – ilk dəmir dövrü | Sırxavənd kəndinin şərqində” |

4.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı”nın “Memarlıq abidələri” bölməsi üzrə:

4.3.1. “Ağdam rayonu” hissəsindən sonra aşağıdakı məzmunda “Ağdərə rayonu” hissəsi əlavə edilsin:

“Ağdərə rayonu

| | | | |
|---|---|---|---|
| 4059-1. | Qala qalıqları | XII əsr | Çardaqlı kəndinin 8 kilometrliyində |
| 4059-2. | Hatəm Məlik Qalası | | Qasapet kəndinin 5 kilometrliyində |
| 4059-3. | Ürəkvənd monastırı | V-XIII əsrlər | Talış kəndinin qərbində |
| 4059-4. | Kilsə | | Çiləbürt kəndi |
| 4059-5. | Qala | | Çiləbürt kəndi |
| 4059-6. | Cermud qalası | | Çiləbürt kəndi |
| 4059-7. | Qala | 1284-cü il | Vəngli kəndi |
| 4059-8. | Məbəd | XIII əsr | Vəngli kəndi |
| 4059-9. | Məbəd | | Çapar kəndi |
| 4059-10. | Məbəd | | Ballıqaya kəndi |
| 4059-11. | Məbəd | 1251-ci il | Bazarkənd kəndi |
| 4059-12. | Kilsə | 1668-ci il | Dovşanlı kəndi |
| 4059-13. | Kilsə | XVII əsr | Dəvədaşı kəndi |
| 4059-14. | Qırmızı məbəd | XVII əsr | Qozlu kəndi |
| 4059-15. | Alban məbədi | 718-ci il | Qasapet kəndi |
| 4059-16. | Kilsə | 1894-cü il | Qasapet kəndi |
| 4059-17. | Cerabert qalası | | Qasapet kəndi |
| 4059-18. | Kilsə | 1883-cü il | Kiçik Qarabəy kəndi |
| 4059-19. | Məbəd | 1881-ci il | Kiçik Qarabəy kəndi |
| 4059-20. | Məbəd | | Kiçik Qarabəy kəndi |
| 4059-21*. | Körpü | | Suqovuşan kəndi |
| 4059-22. | Məbəd | | Çapar kəndi |
| 4059-23. | Alban məbədi | 713-cü il | Çaylı kəndi (keçmiş Dəstəgül kəndinin ərazisində) |
| 4059-24. | Müqəddəs Yelisey monastrı | V-XIII əsrlər | Suqovuşan kəndi |
| 4059-25. | Kilsə | 1898-ci il | Suqovuşan kəndi” |

4.3.2. “Ağdam rayonu” hissəsindən 4032, 4033, 4036, 4040-4042, “Kəlbəcər rayonu” hissəsindən 4477, 4478, 4479, 4480, 4481, 4482, 4483, 4484, 4485, 4486, 4487,4489, 4490, 4491, 4492, 4493, 4498, “Tərtər rayonu” hissəsindən isə 5177-1*-5177-3 inventar nömrəli obyektlər çıxarılsın.

5. “Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 avqust tarixli 137 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 548 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasında dəniz səviyyəsindən 1500 metrdən 2000 metrədək və 2000 metrdən artıq yüksəklikdə yerləşən yaşayış məntəqələrinin Siyahısı”nın “Kəlbəcər rayonu” bölməsindən “Qızılqaya k.” və “Narinclar k.” sətirləri çıxarılsın, aşağıdakı məzmunda “Ağdərə rayonu” adlı yeni bölmə əlavə edilsin:

| | |
|---|---|
| “Ağdərə rayonu | |
| Qızılqaya k. | |
| Narınclar k.” | |

5.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasında dəniz səviyyəsindən 1200 metrdən 1500 metrədək yüksəklikdə yerləşən yaşayış məntəqələrinin Siyahısı”nın “Kəlbəcər rayonu” bölməsindən “İmarət Qərvənd k.”, “Çərəkdar k.” və “Çapar k.” sətirləri çıxarılsın, aşağıdakı məzmunda “Ağdərə rayonu” adlı yeni bölmə əlavə edilsin:

| | | |
|---|---|---|
| “Ağdərə rayonu | | |
| İmarət Qərvənd k. | | |
| Çərəktar k. | | |
| Çapar k.” | | |

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 264 ( Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının yerli əhəmiyyətli avtomobil yollarının siyahısı”nda aşağıdakı dəyişiklik edilsin:

6.1. “Ağdam rayonu” bölməsinin 21-ci sıra nömrəsinə “Sırxavənd” sözündən sonra “(Ağdərə rayonu)” sözləri əlavə edilsin;

6.2. “Ağdam rayonu” bölməsindən sonra aşağıdakı məzmunda “Ağdərə rayonu” bölməsi əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Ağdərə rayonu | | | |
| 1. | Y-32-01 | R-29 (71 km, Heyvalı)-Mehmana | 8 |
| 2. | Y-32-02 | R-29 (72 km)-Dəvədaşı-Çıldıran | 10 |
| 3. | Y-32-03 | R-29 (73 km)-Yayıcı | 2 |
| 4. | Y-32-04 | R-29 (82 km)-Qızılqaya-Hayad | 25 |
| | | Giriş yolları: | |
| 5. | | Y-32-04 (5 km)- Qozlu | 2 |
| 6 | | Y-32-04 (15 km,Vəngli)-Narınclar | 12 |
| 7. | | Y-32-04 (18 km)- Çormanlı | 2 |
| 8. | | Y-32-04 (19 km)- Şahmansurlu | 2 |
| 9. | | Y-32-04 (20 km)- Dovşanlı | 3 |
| | | Giriş yolları: | |
| 10. | Y-32-06 | R-29 (90 km)- Həsənriz | 8 |
| | | Giriş yolları: | |
| 11. | Y-59-20 | R-29 (19 km, Ağdərə) - Çaylı-Talış | 20 |
| 12. | Y-59-21 | R-29 (37 km, Ağdərə) - Çardaqlı | 15 |
| 13. | Y-59-22 | R-29 (37 km, Ağdərə) – Ulu Qarabəy- Umudlu | 25 |
| 14. | Y-59-23 | R-29 (37 km, Ağdərə) - Canyataq | 15 |
| | | Cəmi: | 149 |

6.3. “Kəlbəcər rayonu” bölməsi üzrə:
6.3.1. 1-9-cu və 12-ci sıra nömrələri çıxarılsın;
6.3.2. 14-cü və 15-ci sıra nömrələrinə “Çərəktar” sözündən sonra “(Ağdərə rayonu)” sözləri əlavə edilsin;
6.3.3. “Cəmi” hissəsində “256” rəqəmləri “167” rəqəmləri ilə əvəz edilsin;

6.4. “Tərtər rayonu” bölməsinin 24-27-ci sıra nömrələri çıxarılsın və “Cəmi” hissəsində “191” rəqəmləri “116” rəqəmləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 74 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 4.14-1-ci və 5.9-1-ci bəndlər əlavə edilsin:
“4.14-1. Ağdərə rayon Mərkəzi Kitabxana Sistemi
4.14-1.1. Çormanlı kənd kitabxana filalı
4.14-1.2. Vəngli kənd kitabxana filalı
4.14-1.3. Vəngli kənd kitabxana filalı
5.9-1. Ağdərə rayonunun mədəniyyət evləri və klubları
5.9-1.1. Çərəktar kənd Mədəniyyət evi
5.9-1.2. Narınclar Mədəniyyət evi
5.9-1.3. Vəngli kənd klubu
5.9-1.4. Çormanlı kənd klubu
5.9-1.5. Umudlu kənd Mədəniyyət evi”;

7.2. “I. Büdcədən maliyyələşdirilən qurumlar” bölməsinin “4. Kitabxanalar” hissəsindən 4.38.24-cü, 4.38.32-ci və 4.38.80-cı, “5. Mədəniyyət mərkəzləri, evləri və klubları” hissəsindən isə 5.33.25-ci, 5.33.28-ci, 5.33.48-ci, 5.33.62-ci və 5.58.17-ci bəndlər çıxarılsın.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 757 (Cild I) ilə təsdiq edilmiş “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 10.22-ci bənddən “Baş Güneypəyə”, “Bəşirlər”, “Orta Güneypəyə”, “Xatonbəyli”, “Sırxavənd”, “Yeni Qaralar”, 36.10-cu bənddən “Narınclar”, 64.6-cı bənddən isə “Umudlu” və “Şıxarx” sözləri çıxarılsın;

8.2. 36.10-cu bənddən “Çərəkdar” sözü çıxarılsın;

8.3. aşağıdakı məzmunda 71-1-ci bənd əlavə edilsin:

“71-1. “Ağdərə rayonu üzrə

71-1.1. Kənd tibb məntəqələri:

| | |
|---|---|
| Baş Güneypəyə | Orta Güneypəyə |
| Bəşirlər | Sırxavənd |
| Umudlu | Yeni Qaralar |
| Şıxarx | |

71-1.2. Kənd həkim məntəqələri:

| |
|---|
| Narınclar |
| Çərəktar”. |

9. “İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrinə daxil olan tikililərin müvafiq ərazidə tikinti niyyətinin həyata keçirilməsi zərurəti ilə bağlı sökülməsi qadağan edilən, sökülməsinə rəy tələb olunan və sökülməsi mümkün olan kateqoriyalar üzrə bölgüsü”nün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 sentyabr tarixli 370 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1103 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

9.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Sökülməsi qadağan edilən obyektlərin Siyahısı”nın 10, 16, 17, 229, 266 və 267-ci bəndlərinin “Obyektlərin ünvanı” sütununda “Tərtər rayonu” sözləri “Ağdərə rayonu”sözləri ilə əvəz edilsin;

9.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Sökülməsi tələb olunan obyektlərin Siyahısı” üzrə:

9.2.1. 125-132, 134, 137-140, 142-145, 147, 157-166, 168-177, 187, 191, 227, 451-453, 470, 490, 494-496, 688, 689 və 737-ci bəndlərin “Obyektlərin ünvanı” sütununda “Tərtər rayonu” sözləri “Ağdərə rayonu” sözləri ilə əvəz edilsin;

9.2.2. 426-cı bəndin “Obyektlərin ünvanı” sütununda “Ağdam rayonu, Yeni Qaralar kəndi (Əlimədətli kənd İƏD)” sözləri “Ağdərə rayonu, Yeni Qaralar kəndi (Yeni Qaralar kənd İƏD)” sözləri ilə əvəz edilsin;

9.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Sökülməsi mümkün olan obyektlərin Siyahısı” üzrə:

9.3.1. 1877-1882, 2121, 2124, 2125, 2127, 2129, 2130, 2132, 2204, 2205, 2207-2222, 2225-2237, 2240-2243, 2245-2249, 2285-2292, 2295-2298, 2334, 2335, 2338-2346, 2348-2351, 2353-2357, 2364-2368, 2372, 2378-2408, 2410, 2412, 2423, 2424, 2436-2449, 2451-2453, 2456, 2461, 2638, 2639, 2645-2662, 2716, 2718-2720, 2724, 2726-2741, 2843-2847, 2882, 2903, 2904, 2906, 2907, 2909-2911, 2979, 3343, 3472, 3517, 3532, 3581, 3583, 3714, 3818, 3820, 3821, 3824-3827, 3829-3831, 3891, 3953, 4480, 4481, 6911, 7831, 7832, 7837, 7838, 7840-7842, 7923, 8135, 8142, 8212, 8265, 8266, 8273, 8278, 8279, 8286, 8289, 8290, 8429, 8430, 8432, 8433, 8436, 8440, 8441, 8586, 8772, 8776, 8779, 8781, 8785, 9169, 9229, 9230, 9232, 9418, 9419, 9517, 9703, 9776, 9777, 9789, 9871, 9874, 9875, 9878-9880, 9882, 9906, 9909, 9913, 9920, 9924, 9930, 9939, 10112, 10116, 10117, 20637-20640, 20782, 22577, 22937, 23023, 23025, 23151 və 23256-cı bəndlərin “Obyektlərin ünvanı” sütununda “Tərtər rayonu” sözləri “Ağdərə rayonu” sözləri ilə əvəz edilsin;

9.3.2. 6347-6350, 6353-6358, 6368-6374, 6376-6378, 6380, 6383-6386, 6435, 6468, 6469, 6584-6591, 6595-6599, 15190, 15246, 15247, 15290-15295, 15318-15321, 15328, 15329, 15366-15368, 15417-15419, 15428, 15429, 15449-15451, 15455, 15478, 15485-15489, 15492, 15493, 15551, 15591 və 20705-ci bəndlərin “Obyektlərin ünvanı” sütununda “Ağdam rayonu, Yeni Qaralar kəndi (Əlimədətli kənd İƏD)” sözləri “Ağdərə rayonu, Yeni Qaralar kəndi (Yeni Qaralar kənd İƏD)” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli iqtisadiyyatımız “Fitch Ratings” reytinqində önə çıxıb




*(əvvəli 1-ci səhifədə)*

Bildirilib ki, dövlət qurumu “əvvəlki qiymətləndirmələrdə beynəlxalq kredit reytinq agentliklərini ölkəmizin reytinqləri məsələsinə xəsislik nümayiş etdirməkdə qınamışdı”.

“Sevindirici haldır ki, artıq “Fiç Reytingz” ilk olaraq real iqtisadi vəziyyəti və investorların Azərbaycanın kredit riskinə münasibətlərini obyektiv və adekvat şəkildə ifadə edərək ölkəmizin beynəlxalq kredit reytinqinin yenidən investisiya səviyyəsinə yüksəldilməsinə dair qərar qəbul etmişdir. Ümidvarıq ki, digər beynəlxalq kredit reyting agentlikləri də oxşar mövqedən çıxış edərək Azərbaycanın kredit reytinqini investisiya səviyyəsində təsdiq edəcəklər”, – Maliyyə Nazirliyinin açıqlamasında diqqətə çatdırılıb.

Xatırladaq ki, “Fitch Ratings” Azərbaycanın uzunmüddətli xarici valyuta emitentinin defolt reytinqini “BB+” səviyyəsindən “BBB-” səviyyəsinə yüksəltdiyini və sabit perspektivlə qiymətləndirdiyini açıqlayıb.

Yuxarıda qeyd edilənlərə əsaslanıb deyə bilərik ki, uğurla həyata keçirilən islahatlar nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf yolu keçən iqtisadiyyatı kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini təqdim edib. Ölkəmizin maliyyə imkanları tarixi maksimuma çatlıb. Respublikamız Cənubi Qafqazın və ətrafın iqtisadi coğrafiyasını dəyişdirməyə qadir möhtəşəm layihələrin təşəbbüskarı missiyasını qətiyyətlə öz üzərinə götürüb.

Ötən illər ərzində iqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib. Neft gəlirləri uğurla sosial-iqtisadi inkişafa transformasiya edilib, iqtisadiyyatın fiziki və texnoloji infrastrukturu tamamilə müasirləşdirilib. Sürətli artım sayəsində əhalinin həyat səviyyəsi əhəmiyyətli şəkildə yüksəlib, yoxsulluq səviyyəsi xeyli azalıb.

Bu müddətdə regiondakı liderlik mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan özünü etibarlı tərəfdaş kimi təsdiq edə bilib, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri qovşağına çevrilib. Beləliklə, Prezident İlham Əliyevin qarşıya qoyduğu müasir dövlət, dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri artıq günümüzün reallığına çevrilib.

“Fitch Ratings” kimi nüfuzlu beynəlxalq agentliyin Azərbaycanın uzunmüddətli xarici valyuta emitentinin defolt reytinqini “BB+” səviyyəsindən “BBB-” səviyyəsinə yüksəltdiyini və sabit perspektivlə qiymətləndirməsi haqqında danışarkən isə xatırlatmaq lazımdır ki, reytinq ölkəmizin çox güclü xarici balansı, müvafiq ölkələr qrupunda ən aşağı dövlət borcu və suveren fond aktivlərindən maliyyələşmə çevikliyi ilə dəstəklənib.




Azərbaycanın xarici dövlət borcunun davamlı olaraq azaldılması isə dövlətin beynəlxalq maliyyə institutlarından asılılığının minimuma enməsinə gətirib çıxarıb. Xarici borc əsasən dövlət istiqraz emissiyası vasitəsilə aşağı salınıb.

Respublikamızda istiqraz bazarı son illər sürətlə inkişaf etməkdədir və dövlətin bazarı stimullaşdırmaq üçün atdığı əhəmiyyətli addımlar əhalinin vəsaitlərini bu yöndə investisiya etməsinə imkan yaradır. Xarici dövlət borcunun Maliyyə Nazirliyinin istiqrazları vasitəsilə azaldılması da dövlət istiqrazları bazarına müsbət təsir göstərir. Fiziki şəxslərin bank depozitlərinin faiz gəlirlərinin vergiyə cəlb olunması isə əmanətçiləri bu bazara yatırım etməyə həvəsləndirir. Çünki dövlət istiqrazlarının faiz gəlirləri vergidən azaddır. Bank əmanətinə alternativ maliyyə aləti olan istiqrazların bir çox üstün konturları da var. Bank əmanəti vaxtından əvvəl götürülən zaman yığılan faizlər əmanətçiyə verilmir, lakin dövlət istiqrazlarına vəsaitini yerləşdirən əmanətçilər pullarını istədikləri vaxt yığılan vəsaitlə birlikdə geri götürə bilirlər.

Son illər ölkəmizin daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb. Bundan sonra da həmin sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib.

Xatırladaq ki, Maliyyə Nazirliyinin məlumatına görə, bu il iyulun 1-nə Azərbaycanın dövlət borcu 25 milyard 696,65 milyon manat olub. Borcun 16 milyard 571,9 milyon manatı daxili dövlət borcu, 5 milyard 367,5 milyon ABŞ dolları və yaxud 9 milyard 124,75 milyon manatı isə xarici dövlət borcudur.

“Daxili dövlət borcalmasının artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun ortamüddətli və uzunmüddətli gəlirlilik əyrisinin formalaşdırılması və “Dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində daxili dövlət borcu 17 milyard manata yaxınlaşıb”, – deyə məlumatda qeyd olunub.

# Bu il strateji valyuta ehtiyatlarımız 74 milyard dollara yüksələcək

**Azərbaycanın strateji valyuta ehtiyatları 2024-cü ildə 74 milyard ABŞ dollarına çatacaq. Bu barədə “Fitch Ratings” beynəlxalq kredit reytinq agentliyinin ölkə üzrə reytinq qiymətləndirməsində bildirib. Qeyd edilib ki, bu il üzrə Azərbaycanın strateji valyuta ehtiyatları proqnozlaşdırılan ÜDM-in 98 faizinə yaxınlaşacaq.**



Ölkə rezervlərinin 80 faizi Azərbaycanın Dövlət Neft Fonduna (ARDNF), qalan hissəsi isə Azərbaycan Mərkəzi Bankına (ARMB) aiddir.

Ekspertlərin fikrincə, ölkənin strateji valyuta ehtiyatlarının davamlı olaraq artması bir sıra amillərlə şərtlənir. Bu, ilk növbədə, Azərbaycanın bu gün qeyri-neft sektorunun inkişafı istiqamətində gerçəkləşdirdiyi islahatların ardıcıl xarakter daşıması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional layihələrin həyata keçirilməsi sayəsində dünyanın ən sürətli və dayanıqlı inkişaf edən ölkəsinə çevrilməsi ilə bağlıdır.

Dövlətimizin başçısının çıxışlarının birində bununla bağlı qeyd etdiyi kimi, uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın dayanıqlı surətdə inkişaf etməsinə, bir sektordan – neft-qaz sektorundan asılı olmamağa imkan verib. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təsir etməyib. Bu, Azərbaycanın iqtisadi modelinin unikallığı və ölkəmizin seçdiyi yolun nə qədər düzgün olmasını bir daha göstərirb.

Yeri gəlmişkən, Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin təminatı olan valyuta ehtiyatlarının getdikcə artması iqtisadi islahatların daim diqqət mərkəzində saxlanılmasının məntiqi nəticəsidir. Xatırladaq ki, 2004-cü ildə birinci regional Dövlət Proqramı hazırlanıb qəbul edilən zaman respublikamızın valyuta ehtiyatları cəmi 1,8 milyard dollar olub. Azərbaycan, hətta ən çətin illərdə, dünyada maliyyə böhranı hökm sürdüyü dövrdə – 2015-ci, 2016-cı, 2017-ci illərdə belə valyuta ehtiyatlarını qoruya və artıra bilib. Təkcə 2019-cu ildə ölkəmizin valyuta ehtiyatları 6,4 milyard dollar, hazırda isə yuxarıda xatırlatdığımız kimi, cari ilin ilk 5 ayında 69,7 milyard ABŞ dollar olub.

Azərbaycanın valyuta ehtiyatlarının artmasında son illərdə yaradılan sənaye zonalarının da mühüm təsiri olub. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, respublikada 2024-cü ilin I rübündə sənaye zonalarında 640 milyon manat dəyərində məhsul satışı həyata keçirilib, bunun da 224 milyon manatı ixracın payına düşüb. Bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 14,6 faiz, ixracında isə 28,2 faiz təşkil edib.

2015-ci ildən 2024-cü ilin I rübünün sonunadək sənaye zonalarında 12,74 milyard manat dəyərində məhsul satılıb ki, bunun da 4,1 milyard manatlıq hissəsi ixraca yönəldilib. Bununla yanaşı, sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 70-dən artıq ölkəsinə ixrac edilib. Sənaye zonalarına sahibkarların cəlb olunması, investisiyaların yatırılması və yeni iş yerlərinin yaradılması istiqamətlərində müsbət addımlar atılıb.

Qeyd edək ki, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 142 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

# “Xocalı” gəmisi Kanadadan Çinə doğru səmt götürüb



**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) “handysize” tipli “Xocalı” quru-yük gəmisi növbəti səfərinə çıxıb. ASCO-dan verilən məlumata görə, gəmi bu dəfə 30 min tona yaxın taxtanı Kanadadan Çinə və Yaponiyaya çatdıracaq. Gəminin 17 gün ərzində Çin limanına çatması gözlənilir.**

Azərbaycan bayrağı altında üzən gəmi Kanadanın Nanaimo və Styuart limanlarından yükünü qəbul edərək 113 kilometrlik uzunluğu olan Böyük Ber çayından hərəkətə başlayıb. Daha sonra gəmi Sakit okeanı keçərək əvvəlcə Çinin Lanşan limanına, oradan isə Yaponiyanın Matsuyama limanına gedəcək.

Qeyd edək ki, ümumilikdə, 38 min 593 ton yükgötürmə imkanına malik olan “Xocalı” gəmisinin uzunluğu 180 metr, eni 30 metr, bortunun hündürlüyü 15 metr, suya oturumu 10,47 metr, maksimum sürəti isə 15,7 knotdur. Gəminin suya oturum xüsusiyyəti onun maksimum yük götürməklə bir çox dayaz limanlara da rahatlıqla daxil olmasına imkan verir.

# 6 ayda 3 milyard 252,22 milyon manat gömrük ödənişləri həyata keçirilib



**Azərbaycan Respublikasının 2024-cü ilin dürüstləşdirilmiş dövlət büdcəsinə əsasən, 2024-cü ilin 6 ayı üzrə Dövlət Gömrük Komitəsi üçün müəyyənləşdirilən 3 milyard 253 milyon manat proqnoza qarşı 3 milyard 252,22 milyon manat gömrük ödənişlərinin toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunub və büdcə öhdəliyi 100 faiz icra olunub.**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, ötən ilin müvafiq dövrü ilə müqayisədə gömrük rüsum və vergi daxilolmalarında artım 176,85 milyon manat və ya 5,8 faiz təşkil edib.

# Özəlləşdirmədən büdcəyə daxilolmalar 24 faiz artıb




**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar çərçivəsində əmlak məsələləri sahəsində də bir sıra irəliləyişlərə nail olunub. Belə ki, dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı, torpaq idarəçiliyi və digər sahələrdə mühüm işlər görülüb. Eyni zamanda, vətəndaşlara və sahibkarlara göstərilən dövlət xidmətlərində şəffaflığın artırılmasına, elektron xidmətlərin genişləndirilməsinə, vətəndaş məmnunluğunun yüksəldilməsinə xüsusi diqqət yetirilib.**

Bütün bunların nəticəsidir ki, cari ilin I yarısında İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) özəlləşdirmə hesabına dövlət büdcəsinə 75 milyon manat köçürüb.

ƏMDX-dən verilən məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 24 faiz çoxdur.

Qeyd edək ki, hesabat dövründə ƏMDX 29 hərrac keçirib. Hərraclarda 4 səhmdar cəmiyyətinin səhm paketi, 6 kiçik dövlət müəssisəsi, 412 nəqliyyat vasitəsi özəlləşdirilib. Hərraca çıxarılmış dövlət əmlakı üzrə 305 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə “Elektron hərrac” proqram təminatı vasitəsilə 38 onlayn qoşulma reallaşıb. Birinci yarımillikdə hərrac vasitəsilə 18 faydalı qazıntı yatağı sahibkarların istifadəsinə verilib.

6 ay ərzində yeni iş yerlərinin açılması, sosial-iqtisadi inkişafın daha da sürətləndirilməsi baxımından iri dövlət müəssisələrinin investisiya müsabiqələri vasitəsi ilə özəlləşdirilməsi davam etdirilib. Hesabat dövründə investisiya müsabiqəsi vasitəsilə “Bakı Alüminium Profil” MMC özəlləşdirilib. Bununla yanaşı, “Bakı Mərmər Qranit” MMC-nin özəlləşdirilməsinə dair investisiya müsabiqəsi elan edilib. Hazırda Müsabiqə Komissiyası təklifləri qiymətləndirir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycan “yaşıl” texnologiyalar ölkəsinə çevrilir

**Bu ilin noyabr ayında ölkəmizdə dünyanın ən irimiqyaslı tədbirlərindən biri – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 keçiriləcək. Bununla da respublikamız həm COP29-a evsahibliyi etməsi, həm də enerji siyasətindəki uğurları və proseslərə diplomatik yanaşması ilə bir daha böhrandan həllə gedən yolda mühüm rol oynayan dövlət adını alması faktını təsdiqləyəcək.**

Belə bir tarixi hadisə respublikamızın özünü qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizə aparan dövlət kimi tanıtmasından və qlobal istiləşməni 1,5°C səviyyəsində saxlamaq məqsədilə üzərinə düşən öhdəliyi uğurla yerinə yetirməsindən, milli, regional, qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində önəmli layihələr həyata keçirməsindən xəbər verir.



Bu tədbir çərçivəsində Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, “yaşıl enerji”yə keçid və iqlim dəyişiklikləri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü işlər daha geniş auditoriyanın diqqətinə çatdırılacaq, ölkəmizin yeni, bərpaolunan enerji mənbələrinə keçidi barədə geniş məlumat veriləcək. Bu barədə Azərbaycan Texniki Universitetinin professoru Güləhməd Talıbovla söhbət etdik.

**– Azərbaycanın bərpaolunan enerji potensialını necə qiymətləndirirsiniz?**

– Ölkəmiz zəngin bərpaolunan enerji potensialına malikdir. Azərbaycan günəşli günlərin çox olduğu ölkələrdən biridir. Belə ki, respublikamızda günəş şüalanmasının davamiyyəti ildə 2400-3200 saata catır. Bundan əlavə, güclü küləklərin əsdiyi bölgələrimiz də coxdur. Abşeron və Bakı ilə bərabər, Laçın və Kəlbəcər rayonlarının dağlıq hissəsində güclü küləklərin əsdiyi geniş ərazilər mövcuddur. Abşeron yarımadasında külək enerjisindən istifadə etmək daha məqsədəuyğundur. Xəzər sahili ərazilər də küləksiz olmur və burda da böyük enerji potensialı var.

**– Bərpaolunan enerji mənbələri ilə bağlı vəziyyət barədə nə deyə bilərsiniz?**

– Təbii qaz, neft və daş kömür insanların həyatında mühüm rol oynayır və əsasən, yanacaq kimi istifadə olunur. Neftdən avtomobil və təyyarələr üçün benzin alınır. Elektrik stansiyalarında istifadə olunan mazut da neft məhsuludur. Təbii qaz və daş kömür isə elektrik stansiyaları, qazanxana və zavodlar üçün əhəmiyyətli xammaldır. Onlardan istifadə isə ətraf mühitin çirklənməsinə səbəb olur və nəticədə istixana effekti yaradır. Bu səbəbdən COP29-a evsahibliyi edən Azərbaycan üçün mədən yanacaqlarından (neft, qaz, kömür) “yaşıl enerji”yə keçid və bu sahəyə investisiyaların yatırılması mühüm önəm daşıyır. Çünki bərpaolunan enerji iqlim dəyişikliyi ilə mübarizədə əsas rol oynayır, karbon emissiyalarını azaldır və ekoloji davamlılığı gerçəkləşdirir, həmçinin enerji təhlükəsizliyini artırır və fosil yanacaqların tükənməsinin qarşısını alır. Bütün bunları nəzərə alaraq, Azərbaycanda alternativ və bərpaolunan enerjidən istifadəyə üstünlük verilir. “Yaşıl enerji” mənbələrinə isə günəş və külək enerjiləri, hidroenerji, biokütlə və geotermal enerjilər daxildir.

Qeyd edim ki, bərpaolunan enerji sektorunun, “yaşıl iqtisadiyyat”ın inkişafı respublika rəhbərliyi tərəfindən müəyyənləşdirilən əsas prioritetlərdən biridir. Qarabağ və Şərqi Zəngəzurun “yaşıl zona” elan edilməsi ölkəmizin potensialını artırır. Hazırda Azərbaycanın ümumi enerji balansında (o cümlədən hidroenergetikada) bərpaolunan enerji mənbələrinin payı 15 faiz təşkil edir. 2030-cu ilə qədər respublika üzrə ümumi elektrik enerjisi istehsalında “yaşıl enerji” payının 30 faizə çatdırılması nəzərdə tutulur. Son illərdə reallaşdırılan layihələr isə əsas məqsədə çatacağımızdan xəbər verir. Çünki hər il bərpaolunan enerji mənbələrindən istifadə etməklə istehsalı artırır. Bu ilin ilk yarısında elektrik enerjisi istehsalının su elektrik stansiyalarında 1 milyard 581,1 milyon kilovat-saat, digər mənbələr üzrə isə 451,3 milyon kilovat-saat təşkil etməsi də deyilən fikrin təsdiqidir.

**– Güləhməd müəllim, hazırda günəş elektrik stansiyalarında ən müasir texnologiyalar tətbiq edilir. Bu sahədə diqqətçəkən yeniliklərlə bağlı fikirlərinizi də bilmək istərdik.**

– Hər il yeni texnologiyaların tədbiqi genişlənir. Məsələn, keramika panellərin böyük potensialı var. Onun 1 kvadratmetr səthi adi günəş panelinin 1000 kvadratmetr səthi qədər elektrik enerjisi istehsal edir. Son dövrlərdə isə üzən günəş panellərinin tətbiqi genişlənir. Bu panellərin ən böyük üstünlüklərindən biri su hövzələrində qurulması və torpaq sahələri tələb etməməsidir. Quraşdırılması da ucuz başa gəlir, sərfəlidir, daha sabit və etibarlı enerji təchizatını reallaşdırır. Nəticədə kövrək ekosistemi qoruyur.

Üzən günəş elektrik stansiyası suyun səthində kölgə yaradır, bu gölməçələrdən, su anbarlarından və göllərdən buxarlanmanı azaldır. Bu, xüsusilə quraqlığa meyilli ərazilərdə faydalıdır. Onun yaratdığı kölgə şirin su obyektlərində yosunların çoxalmasının da qarşısını alır. Məlumdur ki, yosunların çoxalması insan sağlamlığı üçün təhlükəlidir, suda oksigen azlığı yaradır, orada yaşayan bitki və heyvanların ölümünə səbəb olur. Nəhayət, üzən günəş panelləri təmiz, bərpaolunan elektrik enerjisi mənbəyini təmin edir. Ondan istifadə atmosferdə “istixana qazları”nın və digər çirkləndiricilərin emissiyalarını azaltmağa kömək edir ki, bu da ətraf mühitə, eləcə də insan sağlamlığına müsbət təsir göstərir. Onu da deyim ki, üzən günəş enerjisi xaricdə geniş tətbiq edilsə də, Azərbaycan üçün yenilikdir.

Son vaxtlar bu sahədə yeniliklərdən biri də selüloz nanolifləri istehsal etmək üçün bambukdan istifadədir. Bu maddə emal edildikdə və təmizləndikdə son dərəcə şəffaf və davamlı materiala çevrilir. Onun liflərindən hazırlanmış şüşə, yanğın zamanı istilik və alovun yayılmasının intensivliyini azaldır. Bambuk şüşəsi həm də enerji potensialına malikdir. Ondan günəş panellərinin tikintisində istifadə edilə bilər. Belə şüşə enerjinin çevrilmə səmərəliliyini 15,29 faiz artırmağa kömək edir. Ümumiyyətlə, yeni texnologiyalar günəş panellərinin və onların köməyi ilə istehsal olunan elektrik enerjisinin dəyərini azaltmağa imkan verir. Onların ölkəmizdə tətbiq edilməsi üçün vaxt lazımdır.

Deməliyəm ki, Azərbaycanın gələcək iqtisadi inkişafı ekoloji təmiz texnologiyalar, təmiz enerji mənbələri, tullantıların təkrar emalı və çirkləndirilmiş ərazilərin reabilitasiyası üzrə tədbirlərin görülməsi ilə sıx bağlıdır.

**Müsahibəni hazırladı:**
**Pünhan ƏFƏNDİYEV**
**XQ**

# COP29 Azərbaycan Əməliyyat Şirkətinin növbəti təlimi



**COP29 Azərbaycan Əməliyyat Şirkəti dövlət qurumlarının qlobal iqlim hədəflərinə uyğunlaşması səylərinin dəstəklənməsi məqsədilə dayanıqlılıq səriştələrinin artırılması üzrə təlim proqramı reallaşdırıb.**

Şirkətin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, proqram onlayn təlimlər və canlı infosessiya modullarından ibarət üçhəftəlik layihə çərçivəsində iyulun 8-dən 26-dək keçirilib.

Əməliyyat Şirkəti və xarici ekspertlər tərəfindən reallaşdırılan intensiv təlim proqramı müxtəlif dövlət qurumlarının COP prosesi ilə yaxından tanışlığını və tədbirdə səmərəli iştirakını, eləcə də bu qurumların sahib olduğu dayanıqlılıq səriştələrinin artırılması üçün məlumatlılığın təmin edilməsinə yönəlib. İqlim, dayanıqlılıq, idarəetmə və sosial sahələri əhatə edən proqram ölkənin 8 müxtəlif sektorunu təmsil edən dövlət qurumları üçün fərqli sessiyalardan ibarət olub və iqlim problemlərinin daha dərindən mənimsənilməsi, eləcə də effektiv cavab strategiyalarının inkişaf etdirilməsinə xidmət edib. Belə ki, nəqliyyat, enerji, iqlim və fövqəladə hallar, iqlim maliyyəsi və iqtisadiyyat, qida təhlükəsizliyi və kənd təsərrüfatı, səhiyyə, turizm, miqrasiya, gənclər və təhsil sektorları daxil olmaqla müxtəlif sahələrdə fəaliyyət göstərən ümumilikdə 49 qurum təlim proqramından yararlanıb.

Proqram çərçivəsində, eyni zamanda, COP29 Təşkilat Komitəsi üçün infosessiya görüşlərinə də start verilib. Burada iqlim fəaliyyətinin əsas istiqamətləri, COP29-un tematik günləri, COP29 Azərbaycan Sədrliyinin fəaliyyət gündəliyi və yeni təşəbbüslər toplusu kimi mövzulara toxunulub.

Dövlət qurumları üçün təlim və səriştələrin artırılması proqramı Azərbaycanda ilk dəfə keçiriləcək olan COP29 iqlim konfransına dair sual yaradan mövzulara aydınlıq gətirilməsinə xidmət edib.

***XQ***

# Ekologiya üzrə yeni dövlət standartları qəbul edilib

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən beynəlxalq standartlar əsasında AZS ISO 14064-1:2024 “İstixana effekti yaradan qazlar – Hissə 1: İstixana effekti yaradan qazların emissiyalarının və təmizlənməsinin kəmiyyət analizi və hesabat verilməsi üçün təşkilat səviyyəsində texniki xüsusiyyətlər və təlimat”, ISO 14064-2:2024 “İstixana effekti yaradan qazlar – Hissə 2: İstixana effekti yaradan qazların emissiyalarının azaldılmasına və ya təmizlənməsinin artırılmasına dair kəmiyyət analizi, monitorinq və hesabatla bağlı layihə səviyyəsində təlimatlarla texniki xüsusiyyətlər” və AZS ISO 14064-3:2024 “İstixana effekti yaradan qazlar – Hissə 3: İstixana effekti yaradan qazlar haqqında bəyanatların verifikasiya və validasiyası üzrə texniki xüsusiyyətlər və rəhbəredici göstərişlər” yeni dövlət standartları qəbul edilib.**

AZSTAND-dan redaksiyamıza bildirilib ki, Azərbaycan Standartlaşdırma İnstitutu ilə Almaniyanın Metrologiya İnstitutunun (“Physikalisch-Technische Bundesanstalt” – PTB) “Keyfiyyət infrastrukturu üçün yaşıl transformasiya” (“Quality Infrastructure for Green Transformation” - QI4GT) adlı birgə layihəsi çərçivəsində işlənib hazırlanan dövlət standartlarının tətbiq edilməsinin əsas məqsədi təşkilat səviyyəsində istixana effekti yaradan qazların inventarizasiyasının layihələndirilməsini, hazırlanmasını, idarə edilməsini və hesabatlılıq ilə bağlı prinsip və tələbləri, emissiyaların baza xətti buraxılış səviyyəsinin müəyyən edilməsini, monitorinqini, həmçinin verifikasiya və ya validasiya prosesini, onların planlaşdırılmasını, qiymətləndirmə prosedurlarını müəyyənləşdirməkdir.



Adıçəkilən dövlət standartı “Ekologiya” standartlaşdırma üzrə Texniki Komitə (AZSTAND/TK 08) tərəfindən müzakirəyə çıxarılıb və AZSTAND tərəfindən qəbul edilərək standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

***XQ***

# İqlim dəyişikliyi bütün ölkələrə təsir göstərir

**“COP29 ilə bağlı ya hər kəs birlikdə fəaliyyət göstərməlidir, ya da uğursuzluq qaçılmazdır”.**




Bunu energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov bildirib. Onun sözlərinə görə, COP29-da gündəmə gətiriləcək əsas məsələlərdən biri məqsədlərə nail olmaq yolunda maliyyələşmə məsələsidir.

“Təkliflərdən biri belədir ki, maliyyələşmə məsələsi ilə bağlı yeni model müəyyənləşdirilməlidir. Biz COP29-un bu istiqamətdə çox əlverişli bir fürsət olacağına inanırıq. Azərbaycan tərəfi müxtəlif tərəflərin geniş şəkildə müzakirələr aparmaları üçün şəffaf bir mühit yaratmağı qarşıya məqsəd qoyub. Ümumilikdə, COP29-un gündəliyinə 14 məsələ daxil edilib. Azərbaycan orada “yaşıl dəhliz”ləri və saxlanma anbarlarının yaradılması, su çatışmazlığı məsələlərini gündəmə gətirilməsini önəmli sayır. İqlim dəyişikliyi bütün ölkələrə təsir edir. Biz milli öhdəliklərə sadiq olmalıyıq. Ona görə ki, bu öhdəliklərin hər biri çox önəmlidir”,–deyə E.Soltanov bildirib.

***XQ***

# Britaniya COP29-un uğurla keçməsi üçün ölkəmizlə tərəfdaşlıq etməyə hazırdır

**İqlim dəyişikliyinin qarşısının alınması və planetin “yaşıl” inkişafı üçün dünya ölkələrini bir araya gətirən COP tədbirlərinin son dərəcə əhəmiyyətli olduğuna inanıram. Bu fikri Böyük Britaniyanın enerji təhlükəsizliyi və “xalis sıfır” emissiyalar üzrə dövlət katibi Ed Milibend Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin yeni inzibati binasının açılışı ilə əlaqədar keçirilən tədbirdə çıxışı zamanı səsləndirib.**

Dövlət katibi indiyədək keçirilmiş COP görüşlərində razılaşdırılmış tədbirlərin davam etdirilməsinin, habelə COP29-da iqlim maliyyələşməsi məsələsi üzrə vacib razılığa gəlinməsinin iqlim məqsədlərinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib. O bu kontekstdə iqlim problemlərindən ən çox əziyyət çəkən ölkələrə dəstək verilməsinin önəminə diqqət çəkib.

Britaniyanın dövlət katibi çıxışında dönə-dönə vurğulayıb ki, Britaniya tərəfi COP29-un uğurla keçməsi və gözlənilən nəticələrin əldə olunması üçün ölkəmizə hər bir dəstəyi verməyə və Azərbaycanla yaxından tərəfdaşlıq etməyə hazırdır.

***XQ***



# Şəhid "alim"



**Sakit yaz günlərindən birində – 1994-cü il mayın 20-də Gəncə şəhərində bir oğlan dünyaya gəldi. Qohum-qonşu gözaydınlığı üçün Nüsrət Şalıyevin evinə yığışdılar. Ailəni təbrik edib, körpəyə müxtəlif adlar təklif etdilər. Valideynlər isə körpəyə Ceyhun adını qoydular.**

Onun üçün anası laylalar, bayatılar söylədi, nağıllar və dastanlar danışdı. Atası Birinci Qarabağ müharibəsində ağır döyüşlərdə iştirak etmişdi. Ceyhun belə bir ailədə Vətənə, torpağa, yurda sevgi ilə böyüyürdü.

2015-ci ildə ali təhsilini uğurla başa vurduqdan sonra hərbi xidmətə çağırılan Ceyhun Şalıyev 2016-cı ilin aprelində Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi uğrunda 4 günlük döyüşlərdə iştirak etdi.

İkinci Qarabağ müharibəsindən bir həftə əvvəl hərbi təlimlərə qatılan Ceyhun Şalıyev sentyabın 27-si döyüş yoldaşları ilə "Ohanyan səddi"nə doğru irəlilədi. Ermənistan uzun illik işğal dövründə burada uzunmüddətli, müdafiə sistemi qurmuş, minalarla, elektron sistemlərlə və digər vasitələrlə qorunmasını təmin etmişdi. Düşmən bu səbəbdən "Ohanyan səddi"ni yarmağın çox çətin, hətta mümkünsüz olacağını düşünürdü. Amma Ceyhun Şalıyev kimi igidlərin qarşısında keçilə bilməyən bir maneə yox idi. Onların düşməndən alınası intiqamları vardı və bu intiqam alınmalı idi.

Ceyhun Şalıyev, əsasən, Füzuli istiqamətində döyüşdü. Ermənistan silahlı qüvvələrinin ön xətdə yerləşən hərbi hissələrinin maddi-texniki təminatı Füzulidən həyata keçirilirdi. Bu istiqamətdə hücumun ilkin məqsədi hakim yüksəklikləri, təchizat və magistral yol qovşaqlarını ələ keçirmək, düşmənin ehtiyat qüvvələrinin manevr imkanlarını və təchizat qabiliyyətini ciddi şəkildə məhdudlaşdırmaq idi. Təpələr ordumuzun nəzarətinə keçirdi. Ceyhungil Füzuli şəhərinin yaxınlığında yerləşən Yuxarı Seyidəhmədli kəndinə doğru irəlləyirdilər. Oktyabrın 1-də onlar həmin kənd istiqamətində düşmən üzərinə hücuma kecdilər. Çox ağır döyüş getdi.

...O, yaralı əsgər yoldaşına kömək etmək üçün yağış kimi yağan güllələrin altında irəli atılıb ilkin yardım göstərir. Yaralını döyüş meydanından çıxararkən gicgahından qəlpə yarası alır və şəhid olur. Bu döyüşdə "N" saylı hərbi hissədən Ceyhunla birlikdə 9 əsgər şəhadətə qovuşur.

Beləcə, düz 4 gün Füzuli istiqamətində vuruşan Ceyhun oktyabr ayının 1-də, səhər saat 4-də döyüş meydanında həlak oldu. Onunla bir səngərdə olan döyüş yoldaşı deyir: "Ali təhsilli olduğu üçün adını "Alim" qoymuşduq. Bizə dinclik vermirdi. "İrəli, İrəli!" – deyərək, qabaqda gedir və bizi də ardınca çağırırdı. Beləcə, Ceynun "Şəhid alim" oldu.

Dayısına Sabunçu Hərbi Komissarlığından zəng edərək bildiriblər ki, Ceyhun ağır yaralanıb, Bakıya gətirirlər. Özünü toparlayaraq deyib: "Mən hərbçi olmuşam. Müharibə şəraitində vuruşan əsgər haqqında ailəsinə, yaxınlarına məlumat vermək nə deməkdir, bilirəm. Açıq danışın, həqiqəti deyin".

Telefonun o biri başından gələn son cümlə dayını sarsıdıb:

– Başınız sağ olsun!..

Gəray dayısının dedikləri: "O gün ayağımın altından yer qaçdı, ağladım. Onu itirdiyimizə heç cur inanmağım gəlmirdi. Hər dəfə Ceyhundan söz düşəndə kövrəlirəm. Tək təsəllim odur ki, Ceyhun bizim qürurumuzdur və onu bütün ölkə tanıyır. Vətənini, bayrağını sevirdi, onun tarixinə və adət-ənənələrinə sonsuz məhəbbət bəsləyirdi, Elə vicdanla, namusla xidmət etdi. Ceyhun bizim nəslin başucalığıdır, məkanı cənnət olsun".

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Ceyhun Şalıyev Azərbaycan Prezidenti İlham Əliyevin 5 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. O, həmçinin "Vətən uğrunda" və "Füzulinin azad olunması uğrunda" medallara layiq görülüb.

**Pünhan ƏFƏNDİYEV**
**XQ**

# Vədinə sadiq əsgər

**Milli məslək uğrunda mübarizədə, Vətən naminə döyüşlərdə qələm sahiblərinin iştirak etməsi onların bir əsgər kimi mənəvi xoşbəxtliyi, daxili zənginliyidir. Bu barədə danışarkən repressiya qurbanı Mikayıl Müşfiq, İkinci Dünya müharibəsində vuruşmuş Məmməd Aranlı, 20 yanvar şəhidi Ülvi Bünyadzadə, Birinci Qarabağ müharibəsində, Ağdamın Sırxavənd kəndi uğrunda döyüşlərdə "Tərlan" adı verdiyi tankında yanıb kül olmuş Nizami Aydın, Xocavəndin Sur kəndində şəhadətə ucalmış rəssam-şair Fuad Əsədov və digərlərini xatırlamamaq mümkün deyil. İkinci Qarabağ müharibəsinin şəhidi Aydın Əliyev də canını Vətənə qurban verən gənc şairlərdən olub.**

Aydın Sumqayıtda dünyaya gəlsə də, əsli-kökü ilə bağlı olduğu Tovuz camaatı kimi saza-sözə könül verənlərdən idi. Elə babası Salman kişi də ozan sənətinin mahir bilicisi olub. Aydın aşıq mahnılarını dinləməkdən yorulmaz, ara-sıra şeirlər yazardı. Amma 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanandan 3 gün sonra o da qələmini süngü ilə əvəz edərək, könüllü cəbhəyə gedib.

Yeri gəlmişkən, Birinci Qarabağ müharibəsində onun əmisi Telman Əliyev və dayısı Saleh Tağıyev şəhid olmuşdular. Atası Nəriman kişinin dediyinə görə, o zaman Aydının 2 yaşı olardı. "Ağlı kəsincə demişdi ki, böyüyüb, onların qisasını alacaq. Şəhid olsa da, həmin istəyinə əməl elədi və ruhu onların ruhuna qovuşdu. Sonuncu dəfə evə zəng edəndə Zəfər yürüşünün Şuşaya çatdığını sevinclə xəbər vermişdi. Demişdi ki, sizi Şuşaya özüm aparacağam. Amma qismət olmadı".

Şair qəlbli gənc döyüşçü bir aydan çox səngər ömrü yaşayıb. Əzəli-əbədi torpaqlarımızın işğaldan azad olunmasında fəal iştirak edib. Davanın sonuna 3 gün qalmış Şuşa uğrunda döyüşlərdə ağır yaralanıb və Bakıdakı hospitalda, 29 yaşında gözlərini əbədi yumub. Cavan ömrü şeirləri kimi yarımçıq qalıb.

Azərbaycan Silahlı Qüvvələrinin cəsur döyüşçüsü, tuşlayıcı operator Aydın Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", eləcə də Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub.

Tərcümeyi-halı ilə maraqlananda gördüm ki, Aydın Əliyevlə mən 34 il fərqlə eyni təhsil ocağında – Sumqayıtın İnşaatçılar qəsəbəsindəki 9 nömrəli məktəbdə 1-ci sinfə getmişik. Açığı, onun həyat və döyüş yolu ilə maraqlanmağıma ilk olaraq bu fakt vəsilə oldu. Öyrəndim ki, həmin məktəbin yanında şəhidin xatirə bulağı tikilib. 9 və 12 nömrəli məktəblərin hərəsində bir sinif onun adını daşıyır. Əlbəttə, bunlar onun ailəsi və dostları üçün böyük təsəllidir.

Şairliyini isə sonra həmkarım Aida Eyvazlıdan öyrənib, şeirlərindən birini "XQ"-nin "Zəfər yolçuları" səhifəsində



dərc etdirdim. "Ata" adlı həmin şeirdə Aydın yazıb:

**Bilməmişəm mən qədrini bəlkə də,**
**Mən əsgərəm, sən qürurlu atasan.**
**Elə bir ad qoyacam ki həyatda,**
**Sən başını daima dik tutasan...**

Aydın canı bahasına sözünə əməl etdi. Şeir qəzetimizdə çap olunan gün həyat yoldaşı Ayşə xanım zəng edərək, minnətdarlığını bildirdi.

Ondan Vətənə 2 oğlu – Salman və Nəriman əmanət qalıb, bir də "barıt qoxulu" misraları. Şəhid olacağı sanki ürəyinə damıbmış. Əlyazmalarının içində olan bir şeir parçasında yazıb:

**Vəsiyyət edirəm mən ölən zaman,**
**Gözümü bağlasın mehriban anam...**

Ayşə xanımın söylədikləri:

– Aydınla hamımız qürur duyuruq. Çox həssas, saf qəlbli, ailəcanlı, qayğıkeş idi. Uşaqlarını çox sevirdi. Amma daha artıq Vətən sevdalı idi Aydın. Elə Vətən üçün də həyatını qurban verdi... Nə qədər canımda can var, Aydının əmanətlərini göz bəbəyim kimi qoruyacaq, onları atalarının adına layiq övladlar kimi yetişdirəcəyəm.

**Ə.NƏCƏFXANLI,**
**XQ**

# Kiş kəndinin igid oğlu

**Orxan Kazım oğlu Hümmətov 1992-ci il noyabrın 4-də Şəkinin Kiş kəndində doğulub. O, ailənin 2 oğlundan biri olub, uşaq vaxtından hərbçi olmağı arzulayıb. Əsgəri xidmətdən qayıdandan 1 il sonra Azərbaycan Silahlı Qüvvələrinin Xüsusi Təyinatlılar hissəsinə yazılıb.**



Türkiyədə xüsusi təlim kursunu uğurla başa vurub, NATO-nun sülhməramlı dəstəsində iştirak edib Orxan. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı gizir Orxan Hümbətov kəşfiyyatçı kimi fərqlənib. Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirərkən şəhid olub. Göstərdiyi qəhrəmanlığa görə o, ölümündən sonra Azərbaycan Prezidentinin sərəncamı ilə "Hərbi Xidmətdə Fərqlənməyə görə" III dərəcəli medalla təltif edilib.

Anası Pərvanə xanım Orxanın şəhidliyinin ilk illərində ondan oğlu sağmış kimi söhbət açırdı: "2 oğlum var. İkisi də hərbçidir. Böyük oğlum Vusalın 37 yaşı var. Orxanın 32 olacaqdı. Vüsal institutu bitirəndən sonra diplomunu evin bir küncünə qoydu. Hərbçi olmaq istədi və oldu da. Orxan da qardaşına baxıb, hərb sənətini seçdi. Yarışlarda həmişə 1-ci yeri qazanır, Azərbaycan bayrağını qaldırırdı... 2016-cı ildə Vusalın toyuna hazırlaşırdıq. Ona deyirdim ki, qardaşından sonra səni evləndirəcəyəm. Deyirdi ki, "yox, ay ana, mənə hər qız gəlməz. Ailə quracağım qız gərək mənim ölüm xəbərimə həmişə hazır olsun".

...Bir dəfə də çəkmələrinin palçığını təmizləyərək, bir torbaya yığır və deyir: "Ana, Şəkidə Qarabağın torpağını Kiş kəndinə gətirən bir nəfər varsa, o mənəm. Şuşa alınana qədər saxlayın".

...Aprelin 3-ü axşam saat 9-un yarısında evə zəng edir. Ata-anası ilə hal-əhval tutur. Deyir ki, kursdan indi gəlib, yatacaq. Heç vaxt dilinə yalan gəlməyən Orxan torpağın, Vətənin xatirinə valideynlərinin narahat olmaması üçün belə deyir.

…Aprelin 4-ü səhər tezdən Pərvanə xanım həyat yoldaşından cəbhədə hansı xəbərlərin olduğunu soruşur. Kazım kişi televizorda 3 gizirin şəhid olduğu xəbərini eşitdiyini deyir. Ana evdə özünə rahatlıq tapmadığından həyətə çıxıb, təmizliklə məşğul olur ki, başı qarışsın. Əllərini göyə qaldırıb, səsi titrəyə-titrəyə, cəbhədə son döyüşlərdə həlak olan şəhidlər üçün ağlayır və əsgərlərə Tanrıdan salamatlıq arzu edir. Bu vaxt onlara xəbərə gələn kənd bələdiyyəsinin nümayəndəsi onu görür, Orxanın şəhid olduğu xəbərini anaya deyə bilmir. Axı qadın əlləri göydə əsgərlər üçün dua edirmiş.

Evə girən ana televizora baxıb şəhidlər üçün ağlayır. Öz-özünə deyir ki, sizin ananız necə dözəcək ayrılığınıza? Ayağa durub, ərindən soruşur ki, ay kişi, bilmədin, o ölən gizirlərin adı nədir, kimdirlər? Kazım kişi "Yox" deyir. Ana durub yenidən həyətə çıxır, əlini göyə açıb deyir ki, ay Allah, sən hamının balasını salamat qaytar, mənim Vüsalımla Orxanımı da onların içərisində.

Bir də baxir ki, qaynı darvazanın yanındadır. Ona "evimiz yıxılıb"– deyir. Ana qışqırır ki, Vüsala nə olub? Deyir, Vüsal deyil, Orxandır…

Sonradan öyrənirlər ki, Orxan Ağdərə uğrundakı vuruşmalarda qəhrəmanlıqla həlak olub. 14 nəfər qarşıda həlak olan hərbçinin meyitini götürmək üçün gedəndə, düşmənin atdığı mərminin qəlpələrindən yaralanıb, şəhidlik məqamına ucalıblar. Polkovniklər Raqub Orucov, Vüqar Hüseynov, gizirlər Orxan Müstəcəbov, Sahil Şirinov, Vüqar Süleymanov və digər hərbçilər birlikdə həlak olublar.

…Vüsalla Orxan çox vaxt evin qapısından qoşa girərmişlər. Pərvanə xanım onların ikisini eyni vaxtda qucaqlayarmış. Orxanın şəhid olduğu ilk aylarda Vüsalı qucaqlayıb "hanı Orxan?"– deyə soruşur. Vusal deyir ki, ana, bundan sonra məni 2 dəfə bağrına bas, Orxan mənim varlığımdadır, ürəyimdədir, o, hiss edəcək.

Vusal danışır: "Aprelin 3-ü axşam saat 9-da mənə zəng edib özümdən muğayat olmağı tapşırdı. Adətən, belə danışmazdı. Fikirləşdim ki, təlim kursundadır. Sən demə, anamgildən sonra mənimlə danışıb, vida edirmiş. Hərbçi kimi belə hallara hazır olsam da, qardaşımın şəhid olmağına inana bilmədim. İllər keçib, yenə də onun yoxluğunu qəbul edə bilmirəm. Gözüm telefonda qalır ki, bəlkə, zəng edəcək... Telefonumuzun danışıq balansı bitəndə, ya o məndən, ya mən ondan xahiş edirdik ki, kontur yükləyək. Əbədi ayrılığın ilk vaxtlarında telefonumun balansı bitəndə Orxana zəng vurmaq istəyirdim ki, kontur yükləsin... amma birdən hiss edirdim ki, yoxdur axı. Onu bircə dəfə qucaqlamaq, ətrini duymaq üçün dünyaları verərəm".

Bütün şəhidlərimiz kimi, Orxan da ölümü ilə ölümsüzlük qazanıb. Kiş kəndinin fəxri, 23 yaşlı gizir Orxan Hümmətov, beləcə, kövrək xatirələrdə özünə taxt-tac qurub.

**Zərifə HÜSEYNOVA**
**XQ**

# Anım tədbiri



**Azərbaycan Respublikası Beynəlmiləlçi Əlil Döyüşçülər (ARBƏD) Fondu Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Müharibə veteranı və şəhid ailələrinə dəstək" layihəsini həyata keçirir. Fəaliyyət planına əsasən şəhid ailələri, müharibə veteranları və hökümət nümayəndələrinin iştirakı ilə 2-ci Qarabağ müharibəsinin şəhidi Elvin İslam oğlu Bayramov anılıb.**

Mərasimdən əvvəl Biləcəri qəsəbəsindəki Şəhidlər xiyabanında uyuyan Elvinin məzarı ziyarət edilərək, ruhuna dualar oxundu. Sonra ARBƏD Fondunun prezidenti, Əfqanıstan və Qarabağ müharibələri veteranı, layihə rəhbəri Sərraf Orucov bildirdi ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə həyatını itirmiş şəhidlərin biri də Elvin Bayramovdur. O, ailənin yeganə oğul övladı idi. Silahlı Qüvvələrimizin tərkibində mətinliklə vuruşmuş, Füzuli rayonunun azad olunmasında qəhrəmanlıqlar göstərərək, oktyabrın 26-da canını qurban vermişdir. Elvin Bayramovun igidlik nümunələri "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə qeyd olunmuşdur.

Etiraf etmək lazımdır ki, bu gün şəhid ailələrinin, müharibə əlillərinin və veteranların cəmiyyətin mənəvi-psixoloji dəstəyinə ehtiyacı var. Bu kateqoriyadan olan insanların problemləri və müşküllərinin həlli yalnız onlara deyil, bütün cəmiyyətə aiddir. Bu məqsədlə "ARBƏD" Fondunun Himayəçilik Şurası üzvlərinin təşəbbüsü və ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəhidlərimizin anım məclisləri təşkil edilir, ailələrinə mənəvi qayğı və diqqət göstərilir.

Fondun digər əməkdaşları və qonaqlar da çıxış edərək, canlarını Vətən və xalq yolunda qurban vermiş şəhidlərin, müharibə əlilləri və veteranlarının müqəddəs şərəf missiyasının daşıyıcıları olduqlarını diqqətə çatdırdılar.

Şəhidin atası İslam Bayramov, anası Dürrə xanım, məclisdə iştirak edən şəhid ailələri və müharibə veteranları onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Həmçinin "Müharibə veteranı və şəhid ailələrinə dəstək" adlı layihənin icrasından razılıq etdilər.

Tədbirin sonunda Elvin Bayramovun anası Dürrə Şəmistan qızı Bayramovaya Vətənə layiq qəhrəman övlad yetişdirdiyinə görə "Xeyirxahlıq və mərhəmətə görə" medalı, fəxri-fərman və üçrəngli Azərbaycan bayrağı hədiyyə olundu. Şəhidin atası İslam Bayramov isə "ARBƏD Fondunun Fəxri üzvü" adına layiq görüldü.

**Fidan SALMANOVA**
**XQ**

# Şəhid anasının poetik duyğuları

**Şəhid anası, şair Maisə Səbuhi yazdığı şeirlərlə gənclərə vətənpərvərlik ruhu aşılayır. Ötən il onun "Şəhidlik Tanrı hədiyyəsidir" adlı kitabı işıq üzü görüb.**

Maisə Səbuhi redaksiyamıza göndərdiyi şeirində bir şəhid övladı ilə təsadüfi görüşünü poetik dillə qələmə alıb. Bir şəhid anasının bir şəhid balası ilə dialoqu, şair qəlbinin çırpıntıları misralardan aydın sezilir. Həmin şeiri oxuculara təqdim edirik:

**Şəhid balası**

Ötən gün gördüm onu
Küçədən keçə-keçə.
Qısılıb bir kənarda
Ağlayırdı gizlicə.

Soruşdum ki, ay bala,
Sən niyə ağlayırsan?
Göz yaşınla qəlbimi
Yamanca dağlayırsan.

Uşaq dedi, atamın
Yolunu gözləyirəm.
Gah ucadan, gah asta
Adını səsləyirəm.

– Atan hardadı sənin,
Çoxmu uzağa gedib?
Belə körpə quzunu
Olmaya o, tərk edib?
– Atam Qarabağdadı,
Düşmənlərlə döyüşür.
Qələbəni, sevinci
O bizimlə bölüşür.

Amma neçə gündü ki,
Xəbər yoxdu atamdan.
Mənim ad günümü də
Çıxarıbdı yadından.

Anlamıram ki, niyə
Nənəm, babam ağlayır.
Anam qara geyinib,
Başa qara bağlayır?..



Bu uşağın sözləri
Yaman toxundu mənə.
Balamızın atası
Şəhid olubmuş demə.

Qarşısında diz çöküb,
Silərək göz yaşını,
Uşağı qucaqlayıb,
Sığalladım başını.

Dedim, sən ağlama heç,
Qəhrəman balasısan.
Qəlbimizdə hər zaman
Bu cür də qalasısan.

Atanla fəxr eylə ki,
Torpaq üçün döyüşüb.
Ucalıb zirvələrə,
Allah ilə görüşüb.

Xilas edib vətəni,
Qayıtmasa da geri,
Şəhid adı qazanıb,
Başını dik tut, yeri!

Uşaq bir az toxtadı,
Zəndlə baxdı üzümə.
Sonra göyə üz tutub,
Qüvvət verdi sözümə:

– Atacan, söz verirəm,
Sənə layiq olacam!
Vətənin keşiyində
Sənin kimi duracam!

**Maisə SƏBUHİ,**
**şəhid anası**

KÖŞƏ

# Qohum evlilikləri

**Son vaxtlar bir məsələ də ciddi müzakirə obyektidir – qohum nikahların qadağan edilməsi. Bu xəbər çıxar-çıxmaz, əhalinin fikri haçalanıb, qohum evliliklərini təqdir edən və etməyən qütblər yaranıb. Təbii ki, mən ikincilərdənəm: qan təzələnməlidir, evliliklər qohumluq çevrəsini genişlətməlidir.**



**Gülcahan MİRMƏMMƏD**
**fleurdumond@mail.ru**

Amma birinciləri başa düşmək üçün də onların tutalğalarını çözmək lazımdır. Qəbul olunmuş qanuna dodaq büzənlər onlarla misal çəkirlər ki, bəs filankəslər əmiqızı-əmioğlu, dayıoğlu-bibiqızıdır, yaxud əksinə, amma şukür, övladları sağlamdır, özləri də mehriban. Di gəl ki, filankəslər nəinki qohum, heç eyni bölgədən də deyillər, övladları isə…

Bəli, uğurlu qohum evliliklərinə istənilən qədər misal tapmaq olar. Kim kimin evinin içinə bələddir ki? Necə biləsən ki, qarşındakı mehriban cütlük əslində, necə dolanır? Məhşur türk məsəlində deyildiyi kimi, "qazan bağlı qaynayar, bilməzsən ki, içində ət bişər, yoxsa dərd". Məntiqin diktə etdiyi bir dəlil də var: tanıdığın adamla yola getmək asandır, hünərin varsa, yadlarla baş çıxart! Stop! Baxın, elə qohum evlilik təqdirçiləri də bunu əsas gətirir: tanıyırıq, bilirik (əslində, ehtimal edirik) ki, bu evlilikdən nə gözləmək olar. Yəni, əksər hallarda bu gözlənti də məhz valideynin gözləntisidir, ailə quracaq oğulun, qızın yox.

Ana öz bacısı qızını çox vaxt həm də o səbəbdən evində gəlin görmək istəyir ki, xalası olduğu üçün qocalanda ona yaxşı baxar. Ana qızını öz qardaşının evinə həm də ona görə gəlin köçürmək istəyir ki, o cah-cəlallı mülkdə yad qızı xanımlıq eləməsin. Bu cür altşüur diktələrini ən müxtəlif merkantil sadalamalarla artırmaq olar. Halbuki, gənclərin rahat dil tapması, qızının ər evində başısığallı gəlin olması, oğul nəvələrinin məhz elə onlara çəkməsi arzusunun tutarlı coğrafi-sosioloji kökləri var.

Coğrafi məqam budur ki, əvvəllər insanlar çox kiçik əhali qrupu olaraq yaşayırdılar. Məsələn, 120 il əvvəl ictimai nəqdiyyatın yox dərəcəsində, yalnız neftxudaların avtomobilli olduğu zamanda Abşerondakı hansısa kənddən Bakıya at arabası, yaxud faytonla gəlmək, az qala, bir gün vaxt aparırdı. Bölgələrimizdə də vəziyyət quberniya Bakısından yaxşı deyildi. Təbii ki, insanlar digər insan qrupu ilə ünsiyyətdən çəkinirdi, istədiyi vaxt yad evindəki övladından xəbər tuta bilməmək, üstəlik, onun yad elin adətlərinə necə uyğunlaşması ilə bağlı nigaranlığı "özününkünə ver, özününkündən al" düşüncəsini formalaşdırmışdı.

Sosioloji məqam da budur ki, qohumla yenidən qohumlaşmaq valideynlərə rahat görünürdü. Yəni gələcək gəlinin evdarlığına, əl qabiliyyətinə bələdsən, kürəkəninin sənin qızını, gələcək nəvələrini ac qoymayacağına güvənin var. Düzdür, yanılanlar da olur, amma hər halda…

Bəs, niyə gənclər yüzdə-doxsan hallarda valideynin qohum evlilik göstərişinə razılaşıbdar? Yenə də sosioloji amil qabarır: yaxınlığındakı hər kəsi tanıdığın doğma kənddən qırağa çıxmadığın halda (yəni ucqar kənddə), bütün qadınların qapalı olduğu mühitdə (yəni şəhər yerində) kimi görüb bəyənə bilərsən? Ən azından bilirsən ki, xalan qızı necə görünür, əmin oğlu mixəkli çay xoşlayır, yoxsa hilli? Bibin qızı qardaşının sözünə baxırsa, deməli, sənin də üzünə qayıtmaz. Dayın oğlu balaca bacısını qapazaltı etməyibsə, deməli, öz əyalı ilə də mülayim dolanacaq...

İndisə dövran dəyişib, insanların xarakteri qəlizləşib. Daha qızlar ananın tökdüyünü yığmır, oğlanlar atanın ailə modelini olduğu kimi təkrarlamır. Üstəlik, kiminsə qızının saçının rəngini, səsinin qulaq cırmaqlamayan olduğunu bilmək, hansısa oğlanın nəyi bəyəndiyini bilmək kimi primitiv məqamları öyrənmək çox asandır. Əslində, bütün bunlar nikah bağlamaq üçün dördüncü-beşinci dərəcəli şərtlərdir ki, bunu da hamımız yaxşı bilirik.

Qızlar daha qohum-əqrabadan ayıbdır deyərək, əmioğlunun ev müstəbidliyinə dözmür, oğlanlar da xalaqızının acı dilinə təhəmmül etmirlər. Bu üzdən də boşanmalar, əvvəldən təməli möhkəm olmayan tifaqların dağılması başlayır: biz də ki, dost kimi ayrıla bilmirik, düşmənə çevrilirik. Qohumla evliliyin əvvəlcədən planlaşdırıldığı kimi, uğurla davam edəcəyinə heç kim öncədən qərar verə bilməz. Əgər övladınız qohumla evliliyə etiraz etmirsə, tablaşıb dözürsə, bu, hələ onun yarıdığına qarant deyil.

Bu günlərdə bir neçə qadınla söhbətdə qohum qaynana–gəlin münasibətindən söz düşdü. Şəxsi həyatına o qədər də bələd olmadığım ali təhsilli bir xanım əvvəlcədən sussa da, sonda sözünü uda bilməyib etiraf etdi:

- Xala, xalaqızı evlənənədək xaladır, xala qızıdır. Elə ki gəlin gəldin, xala dönüb olur qaynana, xalan qızı da baldız. Anamın sözündən çıxmadım, xalam oğlu ilə ailə qurdum. Sonradan bildim ki, mən də onun öz seçimi deyiləm. Bir-birimizlə yola getdik, iki övladımız oldu, amma nə mən, nə də o, öz həyatımızı yaşamadıq.

Nöqtə… Nöqtə… Bir də üç nöqtə.

# Akademik İsa Həbibbəyli Gürcüstan MEA-nın xarici üzvü seçilib

**Bu barədə Gürcüstan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin genişləndirilmiş yığıncağında müvafiq qərar verilib.**



Tədbirdən öncə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli gürcü həmkarı – Gürcüstan MEA-nın prezidenti, akademik Roin Metreveli ilə birlikdə Tbilisi şəhərində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib.

İclasda akademik Roin Metreveli akademik İsa Həbibbəylini görkəmli ədəbiyyatşünas alim, bacarıqlı elm təşkilatçısı və siyasi xadim kimi dəyərləndirərək onun Azərbaycan–Gürcüstan elmi əlaqələrinin inkişafındakı xidmətlərindən danışıb. Sonra akademik Roin Metreveli Gürcüstan MEA-nın xarici üzvü diplomunu AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə təqdim edib.

Yığıncaqda Gürcüstan MEA-nın vitse-prezidenti, akademik Ramaz Xuradze, akademik-katib, akademik Vladimir Papava, Dil, Ədəbiyyat və İncəsənət Bölməsinin akademik-katibi, akademik Elizbar Cavelidze və başqaları çıxış ediblər. AMEA-nın prezidenti İsa Həbibbəylinin elmi yaradıcılığından danışılıb, iki dost və qardaş ölkə arasında yaradılmış möhkəm elmi-ədəbi əlaqələrin inkişafında onun böyük xidmətləri xüsusi vurğulanıb.

Akademik İsa Həbibbəyli çıxışında Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü seçildiyinə görə minnətdarlığını bildirib, iki ölkə arasında elmi əlaqələrin müxtəlif istiqamətlərdə daha da inkişaf etdirilməsi üçün bundan sonra da əzmlə çalışacağını bildirib. O, Azərbaycan aliminin Gürcüstan MEA-nın xarici üzvü seçilməsini qardaş Gürcüstanın Azərbaycan elminə verdiyi yüksək qiymət kimi dəyərləndirib.

Sonra akademik İsa Həbibbəyli Gürcüstan Dövlət İncəsənət Muzeyini ziyarət edib, qurumun rəhbərliyi və burada çalışan alimlərlə görüşüb. Görüş zamanı qarşılıqlı elmi əlaqələrdən söhbət açılıb, fikir mübadiləsi aparılıb. AMEA rəhbəri Tbilisinin azərbaycanlılar yaşayan məhəlləsini də gəzib. Sonra AMEA-nın prezidenti professor Givi Abduşelişvilinin müşayiətilə Tbilisidə Müasirlik Muzeyi ilə tanış olub, həmçinin Kaxetiyanın Saqareco şəhərində "Bağ-Muzey"i ziyarət edərək burada professor Lali Qoqeliani və bir qrup alimlə görüşüb. Görüşdə iki ölkə alimlərinin qarşılıqlı elmi əlaqələrinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

Akademik İsa Həbibbəyli Gürcüstanın fəxri xiyabanı hesab edilən Panteon Muzeyini də ziyarət edib.

***XQ***

# Dünya, səndən kimlər keçdi?..

## Xalq artisti Firudin Səfərovun xatirəsinə

**Əlişir Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrının baş rejissoru Azərbaycanın və Özbəkistanın Xalq artisti, Dövlət mükafatı laureatı Firudin Səfərov iyulun 26-da 91 yaşında Daşkənddə vəfat edib.**



Firudin Səttar oğlu Səfərov 1933-cü il avqustun 1-də Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında zərb alətləri üzrə təhsil alıb, 1953-cü ildən 1964-cü ilədək dahi dirijor maestro Niyazinin rəhbərlik etdiyi Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrində çalışıb. 1968-ci ildə N. A. Rimski-Korsakov adına Leninqrad Dövlət Konservatoriyasının musiqili teatr rejissorluğu fakültəsini bitirib.

Həmin il Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında quruluşçu rejissor kimi fəaliyyətə başlayan istedadlı rejissor qısa müddətdə yüksək yaradıcılıq imkanlarına, dərin səhnə duyumuna malik olduğunu göstərə bilib. F.Səfərov Bakı teatrında populyar milli və klassik opera tamaşalarına quruluş verib, teatr aləmində bacarıqlı rejissor kimi nüfuz qazanıb. Azərbaycanda çalışdığı müddətdə 40-a yaxın dövlət səviyyəli tədbirin hazırlanması Firudin Səfərova həvalə olunub.

Sovet dönəmində maraqlı işləri ilə bütün İttifaqda tanınan rejissor 1977-ci ildə Əlişir Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrına dəvət alıb və burada çalışmağa başlayıb. Daşkənddə yaşadığı 47 il ərzində o, 60-a yaxın opera tamaşasına, o cümlədən P. İ. Çaykovskinin "Qaratoxmaq qadın", "İolanta", Q. Donisettinin "Sevgi şərbəti", C. Verdinin "Traviata", "Riqoletto", "Trubadur", C. Rossininin "Sevilya bərbəri", S. Prokofyevin "Odlu mələk" və başqa əsərlərə maraqlı səhnə həyatı verib.

Firudin Səfərov Özbəkistanda keçirilən kütləvi bayramların bədii rəhbəri və quruluşçu rejissoru olub, yaradıcı adamlar sırasında Azərbaycanı ləyaqətlə təmsil edib. Qardaş ölkədə çalışdığı vaxtlarda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında dahi Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu", müasir türk bəstəkarı Nevit Kodallının "Van Qoq" və görkəmli Azərbaycan bəstəkarı Vasif Adıgözəlovun "Natəvan" operalarına quruluş verib.

Rejissorun Özbəkistanda peşəkar kadrların yetişdirilməsində də xidmətləri böyükdür. O, uzun illər Daşkənd Dövlət Konservatoriyasının opera hazırlığı fakültəsində bu istiqamətdə səmərəli iş aparıb. Bir çox gənc vokalçı ilk yaradıcılıq addımlarını məhz ustad rejissorun köməyi ilə atıb. Firudin Səfərov 2002-ci ildə Daşkənd Dövlət Konservatoriyasının professoru adına layiq görülüb.

F.Səfərov həmçinin Türkiyə, Rusiya, Belarus, Qazaxıstan və Qırğızıstan opera teatrlarında tamaşalar hazırlayıb.

Rejissorun 70, 80, 85 və 90 illik yubileyləri Daşkənddə yüksək səviyyədə qeyd olunub, ictimai və musiqi fəaliyyətindəki xidmətlərinə görə Firudin Səfərov Özbəkistanın "Əmək şöhrəti", "Görkəmli xidmətlərə görə", "Fədakar xidmətləri üçün" ordenləri ilə və medallarla təltif olunub.

O, dünya azərbaycanlılarının Bakıda keçirilmiş qurultaylarının iştirakçısı olub,

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə diaspor quruculuğu sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülüb.

Firudin Səfərov onu sevənlərin qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

# Xəzərin sahilində möhtəşəm festival



**Bakıda yenə də əfsanəvi festival ovqatı hökm sürür. Artıq bir neçə gündür ki, Xəzər dənizinin sahilində, açıq havada – "Sea Breeze" ("Dəniz mehi") istirahət mərkəzində "Dream Fest – 2024" Beynəlxalq Musiqi Festivalı davam edir.**

Tərcümədə arzu, xəyal mənası verən "Dream Fest"də səslənən musiqilərin tərcüməçiyə ehtiyacı yoxdur. Bu, sözün əsl mənasında, dəniz mehinə qarışıb-qaynayan nəğməli könül duyğularıdır. Musiqi bayramının təşkilatçısı və təşəbbüskarı – bəstəkar, müğənni, Azərbaycanın Xalq artisti Emin Ağalarov əvvəlcədən bildirmişdi ki, "Dream Fest" Xəzərin sahilində keçirilən əfsanəvi musiqi təqdimatlarının ab-havasını saxlamaqla yanaşı, ifaçı ölkələrin coğrafiyasını qlobal miqyasda genişləndirəcək.

Budur, festivalda əksəriyyəti postsovet məkanından, eləcə də Türkiyə, Böyük Britaniya, Kanada və digər ölkələrdən Bakıya qonaq gəlmiş 100-dən çox musiqiçinin çıxışı böyük maraqla izlənilir. Onların arasında Rusiyada fəaliyyət göstərən azərbaycanlı müğənni Jony (Cahid Hüseynli), həmçinin Xalq artistləri Aygün Kazımova, Emin, isveçli müğənni Bosson, rusiyalı sənətçi Ani Lorak, Azərbaycan əsilli Qazaxıstan müğənnisi Jah Khalib (Bəxtiyar Hüseynov), Mot (Matvey Melnikov) və başqaları var. MDB ölkələri arasında "Ən yaxşı remiks" nominasiyası üzrə "Qremmi" mükafatını alan ilk musiqiçi qazax İmanbek Zeikenov (DJ İmanbek) da "Dream Fest"in iştirakçısıdır.

Artıq neçə gündür ki, "Sea Breeze" istirahət mərkəzində bir neçə nəsil musiqiçilər populyar mahnılarla, hitlərlə mavi Xəzəri salamlayırlar. Festivalda səhnə alan hər bir ifaçı seyrçilərə zövq verməyə, burada keçirilən hər anı mənalı etməyə çalışır. Festivalda belə bir qeyri-rəsmi şüar da yaranıb və dillərdə gəzir: "Musiqidə ən yaxşı nə varsa, ənənəvi olaraq yayda Xəzər sahilində yaranır".

Festival gözəlliklərindən zövq alan seyrçilərin təəssüratları ilə də maraqlandıq. Onlardan biri – qardaş Türkiyədən növbəti dəfə Bakıya istirahətə gəlmiş İbrahim Arslanoğlu suala həvəslə cavab verərək bildirdi:

– Bura, həqiqətən də, Avropa səviyyəli infrastruktura malik dənizkənarı premium istirahət kompleksidir. Əvvəllər də bu ecazkar məkan belə gözəl performansların meydanı olub. İndi yenə də parlaq musiqi hadisəsinin şahidiyik.

Sumqayıtlı Turan Məmmədov isə dedi:

– Bu gözəl məkan Mayami, Antalya, Dubay kimi mədəni istirahət üçün əvəzsiz yer olmaqla bərabər, Azərbaycanın qeyri-neft sektorunun inkişafını göstərən çoxsaylı ünvanlardan biridir. Bir vaxtlar baxımsız olan Nardaran tərəflərdə bu qızmar günlərdə belə bir yerdə dincəlmək və dünya musiqi ulduzlarının ifalarına şahid olmaq adama unudulmaz təsir bağışlayır. Təşkilatçılara minnətdarıq!

Qeyd edək ki, televiziya tamaşaçılarının da ekran versiyasına baxaraq özlərini tədbirin birbaşa iştirakçıları kimi hiss edə bildikləri "Dream Fest" bu gün axşam yekunlaşacaq və canlı musiqi həvəskarları üçün şirin xatirəyə dönəcək.

***Ə.DOSTƏLİ***
***XQ***

# Vaqif Sultanlının kitabı yayınlandı

**Yazıçı-ədəbiyyatşünas Vaqif Sultanlının yaradıcılığı haqqında "Dənizlə sahil arasında" adlı kitabı "Turan evi" nəşriyyatında oxuculara təqdim olunub.**




Kitaba müəllifin həyat və yaradıcılıq yolundan bəhs edən müxtəlif səpkili araşdırmalar – yubiley yazıları, esselər, ədəbi portretlər, məqalələr, xatirələr daxil edilmişdir. Yazıçının doğumunun altmış beş illiyinə həsr olunmuş kitabın tərtibçisi və yayına hazırlayanı gənc yazar Fidan Vahid, redaktoru filologiya elmləri doktoru, professor Bədirxan Əhmədlidir.

"Dənizlə sahil arasında" kitabına Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Misir, Böyük Britaniya, Koreya, Rusiya və başqa ölkələrin alimlərinin Vaqif Sultanlı haqqında yazıları yer almışdır. Bunların içərisində Azərbaycan müəlliflərindən Rais Rəsulzadənin "Mənalı ömür yolu", Əli Şamilin "Vaqif Sultanlının həyatının bəzi anları", Almaz Əliqızının "Zolaqlı yuva"nın sakinləri", Cavanşir Yusiflinin "Küldən təpəcik olmaz", Bədirxan Əhmədlinin "Vaqif Sultanlı portretinin bəzi cizgiləri" və başqalarının yazıları diqqəti çəkir.

Kitaba daxil edilmiş Əhməd Sami Elaydinin (Misir) "Keçmiş və gələcək arasında zaman metaforası", Pərvanə Bayramın (Türkiyə) "Tarixə işıqtutan bir hekayə: "Kulikovo savaşı", Burak Sarıcının (Türkiyə) "İnsan dənizi" romanı haqqında incələmə", Alsu Kamaliyevanın (Tatarıstan) "Azərbaycan postmodern romanında fəlsəfi bir arayış", Salavat İshakovun (Rusiya) "Tarixçinin bir neçə sözü", Min Can Kimin (Koreya) "Vaqif Sultanlının sönmüş ulduzları", Bakıtgül Kuljanovanın (Qazaxıstan) "Yaxşılığın özgələşməsi yoxdur", Xurşidə Qədirovanın (Özbəkistan) "Həyat və xəyalların inikası", Mixail Brannokun (Böyük Britaniya) "Tərs axın" kitabı ilə bağlı düşüncələr" və başqa yazılar müəllifin yaradıcılığına yanaşma tərzinin fərqliliyi ilə maraq doğurur.

Kitabın mühüm özəlliklərindən biri məqalələrin yazıldığı dildə təqdim olunmasıdır.

Vaqif Sultanlı, həmçinin tərcümə yaradıcılığı ilə də məşğul olmuş, Sergey Jitomirskinin "Surakuzlu alim" tarixi romanını, Rəşad Nuri Güntəkinin "Yarpaq tökümü" və "Dəyirman" romanlarını, Məhəmməd Əmin Rəsulzadənin "Panturanizm haqqında" kitabını, habelə bir sıra dünya yazıçılarının hekayələrini dilimizə çevirmişdir. Müəllifin bədii və elmi əsərləri dünyanın bir sıra dillərinə çevrilmişdir.

***XQ***

# “Azərbaycan dövlətinin bu uzaqgörən siyasəti bizi qürurlandırır”

**Bu gün Qərbi Azərbaycana qayıdış tarixi zərurət kimi ortaya qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən və uğurlu siyasətinin nəticəsi kimi elan olunan “Qərbi Azərbaycana Qayıdış Konsepsiyası” vaxtilə indiki Ermənistan ərazisindən zorla qovulmuş, deportasiyaya məcbur edilmiş soydaşlarımızın öz ata-baba yurdlarına geri dönməsinin beynəlxalq hüquq çərçivəsində həllinə yeni yollar açır.**




Artıq ölkəmizdə bu istiqamətdə görülən işlər qardaş Türkiyədə yaşayan Azərbaycanəsilli vətəndaşların da diqqətini bu məsələyə yönəldib. Elə bu yaxınlarda türkiyəli siyasətçi, sabiq millət vəkili Sinan Oğanın əslən Qərbi Azərbaycandan olduğunu bildirməsini ictimaiyyət böyük maraqla qarşılayıb. Maraqlıdır, bu gün Türkiyənin Azərbaycan kökənli sakinlərinin ən çox yaşadığı İgdır (Qars da bura aiddir) bölgəsində Qərbi Azərbaycan həqiqətləri yaddaşlarda necə qorunur? Müsahiblərimiz İğdır–Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acar, dərnək üzvləri – əslən Qərbi Azərbaycandan olan Fəxrəddin Budaq və Səlahəddin Gür Arasdır. Sualımızı ilk olaraq Ziya bəy cavablandırır.

**Ziya Zakir Acar:**

– İğdır bölgəsində yaşayanların böyük əksəriyyətinin vaxtilə Qərbi Azərbaycandan zorla çıxarıldıqdan sonra burada yerləşməsi yaşadığımız tarixin bir hissəsidir. Mən ötən əsrin 80-ci illərində bu acı tarixi özündə əks etdirən “Görənlərin gözü ilə İğdırda erməni qətliamı” kitabını yazmaq üçün orada bu hadisənin şahidləri olmuş 1700-ə yaxın soydaşımızla görüşüb xatirələrini qələmə almışam. Bu söhbətlərin çoxunu videoçəkilişlə kasetlərə də köçürmüşəm. Bu insanlar elə şeylər danışırdılar ki, inanın, bunlardan minlərlə roman yazmaq mümkündür. Qərbi Azərbaycanda yaşamış həmin insanların Türkiyədəki və xaricdəki övladlarını, nəvələrini də axtarıb tapdım. Onların çoxu bu haqda məlumatlı idilər, hətta bir çoxunda müəyyən tarixi faktlar da var idi, sonradan mənə göndərdilər. Bu işlərlə bağlı İğdırdakı bütün kəndləri bir-bir gəzmişəm. Hətta bu kəndlərin çoxu Azərbaycan türkləri tərəfindən qurulub, qohumları, yaxınları ilə məskən salıblar. Sonra Qarsa, Amasiyaya getdim, orada da qərbi azərbaycanlıların yaşadıqları bir çox kəndləri gəzib, detallı olaraq onların xatirələrini toplamışam.

**– Ziya bəy, siz özünüz Qərbi Azərbaycanın hansı mahalındansınız?**

– Sərdarabad rayonunun – indi ermənilər oranı Oktemberyan adlandırırlar – Canfida kəndindən köç etmişik. Bəzi mənbələrdə adı Canfəda kimi də keçir. Bizim kəndimiz Arazın sol sahilində yerləşir. Bu kənddə, əsasən, oğuzların reyhanlı tayfasından olanlar yaşamışlar. 1918-ci ildə bura köçərkən atam çox kiçik yaşlarda imiş. Amma babam Fətullah kişinin həmin kənddə ermənilərlə döyüşdüyünü, quyuya atıldığını, sonra oradan necə çıxıb bura gəldiklərini eşitmişəm. Mənim “İçimdəki sızı” kitabımda bunlar var. Turan Atasevər də bunları Qərbi Azərbaycanla bağlı araşdırmalarında qələmə alıb. Turan Atasevər 4 yaşında olarkən, 1932-ci ildə ailəsi erməni zülmündən qaçaraq İğdırın Kadıkışlak kəndinə gələnlərdəndir. Bu kənd onların orada yaşadıqları İydəli kəndi ilə üz-üzədir, arada, sadəcə, Araz çayı var. İydəli də bizim Canfidaya qonşu kənddir. Turan Atasevər sonralar Ankara Universitetinin məzunu olmuş, biz çox vəzifələrdə işləmiş, hətta 1952-ci ildə “Araz” adlı jurnal da çıxarmışdır. 2023-cü ildə isə İzmirdə dünyasını dəyişmişdir. Yəni demək istədiyim odur ki, Qərbi Azərbaycandan köçüb Türkiyənin bir çox bölgələrində yerləşmiş soydaşlarımız çoxdur.

**– Ümumiyyətlə götürdükdə, bura köçənlərin ən çoxu hansı mahallardan gələnlərdir?**

**Ziya Zakir Acar:**

– Ən çox Vedibasardan gələnlərdir. Amma Sərdarabaddan, Gərnibasardan, Qəmərlidən, Zəngibasardan belə gələnlər var.

**Səlahəddin Gür Aras:**

– Mənim ata-babalarım Qəmərlidən gəliblər, Şöllü (Çöllü) tayfasındanıq. Kəndimizin də adı Şöllü Mehmandar olub. Babamgil bura gələndə çox olublar. Qonşu Dəmirçi kəndindən də onlarla birgə xeyli sayda insan gəlib. Hazırda bizim tayfadan olanlar Akyüzlər, Güraraslar, Şöllər, Çöllülər soyadı ilə tanınırlar. Bizim soyadımızın Gür Aras olması isə Arazın gur axmasını ehtiva edir. Hazırda nəslimizin davamçılarından İğdırda, İstanbulda, Ankarada və digər yerlərdə yaşayanlar var. Bizim bura köçməyimiz də çox ağır şərtlər altında olub. Hərəsinin də bir dastanlıq acı hekayəsi var.

**Ziya Zakir Acar:**

– Bunu da əlavə edim ki, İrəvandan gəlib İgdır və kəndlərində yerləşənlər əsasən 1915–1918-ci illərdə, Vedibasardan köçənlər isə 1928–30-cu illərdə gələnlərdir. Onların çoxu İğdırın Daşburun kəndində yerləşib. Kərbalayı İsmayılın dönəmində bu kəndə gələnlər içərisində bir neçə tayfa olub. Mən özüm də 1985-ci ildə İrəvanda olmuşam. Babalarımın doğulub böyüdüyü, yaşadığı kəndi görmək istəyim məni aparıb ora. O zaman özümlə bir azərbaycanlı tərcüməçi də götürmüşdüm. Canfidanı gedib gördüm. Burada yaşayan ermənilərin birindən soruşdum ki, əvvəllər bu kənddə 5 məscid, 3 qəbirstanlıq olub, bəs hardadır bunlar? Bir yaşlı erməni dedi ki, həmin qəbirstanlıqların hamısını ekskavatorla dağıdıb üstündə iş yerləri tikiblər. Səbəbini soruşdum, dedi ona görə belə ediblər ki, gələcəkdə nə zamansa buranın türk yurdu olduğu bilinməsin. Bundan bir neçə il sonra isə Qarabağ hadisələri başladı.

**Fəxrəddin Budaq:**

– Mənim atamgil köçəndə ilk olaraq İgdırın Quzügüdən kəndinə gəliblər. Amma dolanacaq çətin olduğundan, bir müddət qonşu Qasımcan kəndində yaşamalı olublar. Sonra yenidən Quzugüdənə qayıdıblar. Sonra bir çox hadisələr baş verib, Qüdrət bibim atam 13-14 yaşlarında olanda Doğubəyazidə ərə verilib, ancaq atamın bundan xəbəri olmayıb. Bunun çox acı bir tarixçəsi var. Sonra atam bibimi axtarmağa gedib, ancaq tapa bilməyib. Yolda, o zaman hökumətin qərarı ilə kimsəsiz uşaqları yığıb məktəblərə göndərən bir qrupun insanları ilə qarşılaşıb və onlar da atamı Ərzincana aparıb ibtidai təhsil verən bir məktəbə qoyublar. Sonra atam ilk təhsilini alıb yenidən kəndə qayıdıb. Amma bacısını tapa bilməməsi onu çox üzüb və nəhayət 30 il sonra, təxminən 50-ci illərin əvvəlində Qüdrət bibimin Doğubəyaziddə yaşadığını öyrənib. Atam çətinliklə də olsa, gedib onu tapıb, bir neçə gün də orada qalaraq geri qayıdıb. Sonrakı illərdə atam da, bibim də rəhmətə gedib. Bibimin nəvələrindən indi orada yaşayanlar var, əlaqəmiz davam edir.

**Səlahəddin Gür Aras:**

– Zaman keçdikcə kəndimizin bir çox insanları Türkiyənin müxtəlif yerlərinə yayılıblar. Bunun da bir səbəbi kəndlərdə yaşayışın çətin olması idi. Gənc nəsil böyüdükcə kimisi təhsil, kimisi iş dalınca digər böyük şəhərlərə üz tutub, sonra da çoxu geri qayıtmayıb. Beləliklə, bir zamanlar Qərbi Azərbaycandan buralara gəlib yerləşmiş insanların bir çoxu digər bölgələrə də köçüb.

**– Ziya bəy, bu yaxınlarda Qarsda Qərbi Azərbaycana qayıdışla bağlı forumda siz də iştirak etmisiniz. Forum necə keçdi, hansı məsələlər müzakirə olundu?**

**Ziya Zakir Acar:**

– Bəli, bu forum Türkiyə–Azərbaycan Dərnəkləri Federasiyası, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Qars bələdiyyəsinin birgə təşkilatçılığı ilə keçirildi. Forumda bir çox məsələlərə toxunuldu. Xüsusilə, ermənilərin 1918–1920-ci illər arasında Şərqi Anadoluda törətdikləri cinayətlərdən bəhs olundu. Düşünürəm ki, bu kimi tədbirlərin həm Türkiyədə, həm Azərbaycanda keçirilməsi, Qərbi Azərbaycanla bağlı məsələlərin müzakirə olunması çox böyük əhəmiyyət daşıyır. Həm tarixi öyrənmək, təbliğ etmək baxımından, həm də Azərbaycan türklərinin tarixi hüquqlarının bərpası baxımından önəmlidir.

**Fəxrəddin Budaq:** – Əlavə edim ki, Türkiyəyə qarşı saxta soyqırımı iddialarını gündəmə gətirən ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri qırğınlar indiki Ermənistan adlanan Qərbi Azərbaycan ərazilərində də olub. Tarixi mənbələrə görə, 300 minə yaxın Qərbi Azərbaycan türkü öz ata-baba ocaqlarından ayrı düşüb. Onların bir qismi də Qarsa və onun ətrafına gəlib yerləşmişdir. Yəni, əslində, azərbaycanlılar həm Qərbi Azərbaycanda, həm də buralarda böyük qırğınlara məruz qalıblar. Həmin qaçhaqaç zamanı İran tərəfə də keçənlər çox olub, bir müddət sonra geri qayıdıblar. Bura qayıdanda da ev-eşiklərinin tamamilə dağılmış vəziyyətdə olduğunu görüblər. Bu haqda Ziya bəyin kitablarında çoxlu məlumatlar var.

**Ziya Zakir Acar:**

– Elə forumda səsləndirilən ortaq fikirlərdən biri də bu oldu ki, bugünkü Ermənistan dövləti qərbi azərbaycanlıların bu hüquqlarının pozulmasına görə təzminat ödəməlidir.

**Səlahəddin Gür Aras:**

– Qərbi Azərbaycandan Türkiyəyə köçən elə bir ailə tapılmaz ki, o ailədə bu ağrı-acılardan bir iz qalmasın. Hər kəs yaxınlarını itirib, maddi-mənəvi ziyana uğrayıb. Biz bütün bunları ata-babalarımızdan çox eşitmişik. Sağ olsunlar, Ziya Zakir Acar, Sərdar Ünsal və digər vətənsevər aydınlarımızın sayəsində bütün bu hadisələr qələmə alınıb.

**– Qərbi Azərbaycana qayıdış böyük və çox əhatəli bir mövzudur, bu haqda nə qədər danışsaq da, bitib-tükənməz. Amma bu gün Azərbaycan dövləti, şəxsən cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş bu konsepsiyanın uğurlu təbliğində hər birimiz fəal rol oynamalıyıq. Son olaraq bununla bağlı fikirlərinizi öyrənmək istərdim.**

**Ziya Zakir Acar:**

– Həqiqətən də, 44 günlük Vətən müharibəsindən sonra qazandığımız Böyük Zəfər regionumuzda bir çox reallıqları dəyişdirdi. Cənab İlham Əliyevin bu qələbədən dərhal sonra “Qərbi Azərbaycana Qayıdış Konsepsiyası”nı elan etməsi 100 ildən artıq bir dövrdə saxta erməni iddiaları ilə üz-üzə qalan, bu kirli siyasətin ağrı-acısını yaşamış yüzminlərlə qərbi azərbaycanlının hüquqlarının bərpası yönündə atılmış ən böyük addımdır. Buna görə də bu işdə həmrəy olmalı, tarixi ədalətin bərpasına birgə çalışmalıyıq.

**Səlahəddin Gür Aras:**

– Mən də Ziya bəyin fikri ilə tamamilə razıyam. Azərbaycan türkləri son 200 ildə tarixin ən böyük sınaqları ilə üz-üzə qalıblar, amma şükürlər olsun ki, türkün mərdliyi, öz el-obasına sevgisi, dövlətçilik şüuru onu ayaqda saxlayıb. İnanıram ki, yaxın gələcəkdə türkün gücü ilə hər kəs hesablaşacaq, bu gücün önündə gedən Türkiyə və Azərbaycan tarixi ədaləti də bərpa edəcək.

**Fəxrəddin Budaq:**

– Bu gün Azərbaycan dövlətinin qərbi azərbaycanlılarla bağlı ortaya qoyduğu uzaqgörən siyasət bizi qürurlandırır. Həm də ona görə ki, biz bu siyasətin arxasında güclü Azərbaycan görürük, haqqın, ədalətin nəhayət ki, bərpasını görürük. Həmrəyliyimiz nə qədər güclü olarsa, arzularımız da o qədər çin olar.

Fikirləriniz üçün sağ olun, hər birinizə təşəkkür edirəm.

**S.HƏSƏNOV,**
**Naxçıvan–İğdır–Naxçıvan**

MARAQ DÜNYAMIZ

# ABŞ prezidentləri haqqında bildiklərimiz

## Onlardan dördü qətlə yetirilmiş, dördü isə vəzifə başında vəfat etmişdir

**Taleyin bizə verdiyi şansdır ki, heç zaman unutmayacağımız bir çox tarixi məqamlara şahidlik edirik. Elə məqamlardan biri ilə 2020-ci il oktyabrın 27- də rastlaşmışdıq. Həmin gün biz, şəxsən mən elə bildim ki, Xeyirlə Şərin min illər boyu davam edən mübarizə səhnəsinin bir dialoqunu eşidirdim. O gün Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının “Fox News” televiziya kanalına onlayn müsahibə verirdi.**

Jurnalist sırtıqcasına israr edirdi ki, İkinci Qarabağ müharibəsində Azərbaycan günahkardır:

“Cənab Prezident, hüquqi müstəvi və reallıqlar var. Dağlıq Qarabağda və regionda reallıq ondan ibarətdir ki, 1980 və 1990-cı illərin bütün keşməkeşli yollarından keçdikdən sonra indi ora prinsip etibarilə erməni əhalisindən ibarətdir. Əgər siz oraya daxil olsanız, yenə də erməniləri çıxarıb, azərbaycanlıları geri gətirməlisiniz və yenə məcburi köçkünlər olacaq. Masada diplomatik plan var, Dağlıq Qarabağın müstəqilliyinin saxlanılması, Ermənistanın Dağlıq Qarabağ ətrafında yeddi rayonun geri qaytarması. Siz diplomatiya yolunu nəzərdən keçirirsinizmi?”

Fikrimcə, bu, riyakarlıq, məkr və qərəz əlaməti deyil, iyrənc bir həyasızlıq idi. Utanmadan deyirdi ki, ölkənizin 20 faizini gəlmə quldurlara və terrorçulara verin. O da faktdır ki, həmin jurnalist özbaşına deyildi və Ağ evin tapşırıqlarını yerinə yetirirdi.

Bəs ABŞ-nin həmin təklifini gənc müstəqil Azərbaycan dövlətinin qüdrətli və müdrik lideri necə cavablandırdı? Belə: “Gedin, öz problemlərinizin həlli ilə məşğul olun”.

“Sülh planında təklif, bənd var ki, Dağlıq Qarabağın ətrafında yerləşən işğal olunmuş bütün ərazilərin, – bu o ərazilərdir ki, orada azərbaycanlılar yaşamışdır və 700 mindən çox azərbaycanlı bu ərazilərdən etnik təmizləməyə məruz qalmışdır, – Azərbaycana qaytarılması deyilir. Sizin haqqında danışdığınız reallıqlar, Ermənistanın təcavüzkar separatizmi və azərbaycanlıların etnik təmizlənməsi nəticəsində yaranmış reallıqlardır. Bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulmuşdur, müharibədən əvvəl orada 40 min azərbaycanlı var idi, Dağlıq Qarabağ ətrafında olan yeddi rayondan bütün azərbaycanlılar – 700 min nəfər qovulmuşdur...” Yəni Qarabağdan çıxacaq ermənilərdən əvvəl oradan qovulmuş yerli sakinlərin probleminə diqqət yönəldin.

Bəs “ABŞ prezidentləri haqqında bildiklərimiz” adlı qeydlərimizə dövlət başçımızın adı çəkilən müsahibədə söylədiyi cümlələrlə başlamağımızın səbəbi nədir? Səbəb odur ki, cənab Prezident həmin gün ABŞ-nin vitse-prezidenti Donald Tramp (onun da gülləyə hədəf olduğunu hamı gördü) Cənubi Qafqaz siyasəti haqqında müsbət fikirlər səsləndirmişdi:

“Düşünürəm ki, Prezident Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik. Biz görürük ki, ABŞ-nin mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir... Prezident Trampın açıq siyasəti burada – Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir”.

İndi isə Amerika Birləşmiş Ştatlarının prezidentləri haqqında bəzi məlumatlara nəzər salaq. ABŞ icraedici hakimiyyətinin başçısı kimi ehtiva edilən bu vəzifə 1787-ci ildə qəbul olunmuş ABŞ Konstitusiyası tərəfindən təsis edilib. İki il sonra Corc Vaşinqton ABŞ-nin ilk prezidenti seçilmişdi. Doğrudur, onun həmin vəzifəni tutmasından öncə də “prezident” vəzifəsi var idi. Ancaq həmin prezident “Kontinental Konqresin prezidenti” idi.

Corc Vaşinqton ardıcıl iki dəfə prezident seçilsə də, o, ölkənin birinci və ikinci prezidenti yox, məhz birinci prezidenti kimi tarixə düşüb. Üstəlik, o, seçicilərin 100 faizinin səsini qazanan ilk və yeganə ABŞ dövlət başçısı olub.

Qrover Klivlend isə fasilələrlə dövlət başçısı seçildiyinə görə ölkənin 22-ci və 24-cü prezidenti hesab olunur. 1933-cü ildən 1945-ci ilədək ( 12 il) bu vəzifəni tutan Franklin Ruzvelt 4 dəfə ABŞ Prezidenti seçilmiş dövlət başçısı postunda ən uzun müddət qalan şəxs sayılır. Maraqlıdır ki, bu ölkəyə cəmi iki ay rəhbərlik etmiş prezident də var idi. Belə ki, 1841-ci ilin mart–aprel aylarında Ağ evə rəhbərlik etmiş Uilyam Harrison xəstəlikdən vəfat etdiyinə görə ABŞ-a ən az müddətdə rəhbərlik etmiş şəxs kimi tarixə düşüb.

ABŞ prezidentləri haqqında olan maraqlı məlumatlardan biri də odur ki, bu ölkə prezidentlərinin səkkizi vəzifədə olarkən vəfat etmişdir. Onlardan dördü – Uilyam Harrison, Zakari Teylor, Uorren Hardinq və Franklin Ruzvelt) vəzifədə olduğu müddətdə vəfat etmişdir. Dördü isə qətlə yetirilmişdir. Belə ki, prezident Avraam Linkoln 1865-ci ildə teatrda – Konfederasiya tərəfdarı tərəfindən, Ceyms Qarfild 1881-ci ildə vağzalda ruhi xəstə tərəfindən, Uilyam Mak-Kinli 1901-ci ildə sərgidə anarxist tərəfindən və Con Kennedi 1963-cü ildə Li Harvi Osvald tərəfindən qətlə yetirilmişlər. Riçard Nikson isə ABŞ tarixində vəzifədən istefa vermiş ilk və yeganə prezidentdir.

İlk prezident Corc Vaşinqton seçicilərin 100 faizinin səsini qazanan lider kimi yadda qalsa da, Cerald Ford seçicilərin səsi ilə seçilməyən prezident kimi tarixə yazılıb. Belə ki, Riçard Nikson onu Spiro Aqnyunun istefasından sonra vitse-prezident təyin etmiş və təyinatı Konqresin hər iki palatası təsdiqlənmişdi. Niksonun istefasından sonra isə o, seçkisiz, səsverməsiz, avtomatik olaraq prezident kürsüsündə əyləşmişdi.




Başqa bir fakta nəzər salaq. İkinci və altıncı prezidentlər, habelə qırx birinci və qırx üçüncü prezidentlər ata və oğul olmuşlar, İyirmi altıncı və otuz ikinci prezidentlər isə bir-birinə uzaq qohum idilər. O da əlavə edilir ki, Martin van Buren ingilis müstəmləkələrinin deyil, müstəqil Ştatların ərazisində doğulmuş ilk prezident idi və həm də doğma dili ingiliscə olmayan yeganə prezident idi.

İctimai və ya siyasi məzmun kəsb etməyən başqa bir fakt isə ondan ibarətdir ki, vəzifə başında olduğu zaman öldürülən iki prezidenti Conson soyadlı vitse-prezidentlər əvəz ediblər. Barak Obama ilk afroamerika mənşəli prezident olmuşdur.

Sabiq prezidentlərdən dördü hazırda yaşayır. Bunlar Bill Klinton, Corc Uoker Buş, Barak Obama və Donald Trampdır.

Sonuncu iki prezidentə gəlincə isə Donald Tramp bu yaxınlarda gülləyə hədəf oldu. Cozef Baydenin isə ilk xanımı Nella Hanter və bir yaşındakı qızları Emi 18 dekabr 1972-ci ildə Hokessin şəhərində müəmmalı avtomobil qəzasında həlak olmuşdular.

Bütün bunlar ABŞ həqiqətləridir. O ABŞ ki, az qala dünyanın bütün ölkələrinə demokratiya dərsi verməyə çalışır və demək olar ki, dünyanın yarısında müharibə, münaqişə, terror, təxribat və ya rəngli inqilablara “nail olmuşdur”.

**İttifaq MİRZƏBƏYLİ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 158 (30562) 28 iyul 2024-cü il, bazar

# "Paris-2024": Güc və əzmin vəhdəti!

## Bu gün boksçularımız mübarizəyə başlayırlar

**Bu gün müasir Olimpiya Oyunlarının ilk növlərindən sayılan boks yarışları start götürür. Tarixi 5 min bundan əvvəlki dövrlərə gedib çıxan bu idman növü cəmiyyətin yarandığı ilk dövrlərdən dünya xalqları arasında yayılmağa başlayıb.**




Olimpiya oyunlarında boks üzrə ilk medal "Sidney-2000"də qazanılıb. Təmsilçimiz, 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Vüqar Ələkbərov bürünc medala layiq görülüb. 2004-cü il Afina Olimpiadasında boksçularımız böyük uğurla çıxış ediblər. 51 kiloqram çəki dərəcəsində Fuad Aslanov, 54 kiloqram çəkidə isə Ağası Məmmədov fəxri kürsünün 3-cü pilləsinə qalxıblar.

Afina-2004 Olimpiadasında 1/4 finalda mübarizəni dayandıran Şahin İmranov (57 kq) Pekin-2008 Yay Olimpiya Oyunlarının boks üzrə yeganə bürünc medalını qazanıb. "London-2012"də həmçinin boksçular Teymur Məmmədov (-91) və Məhəmmədrəsul Məcidov (+91 kq) isə London Olimpiadasını bürünc medalla başa vurublar.

Azərbaycan boks millisi "Rio-2016"da ən yaxşı nəticəsinə imza atıb. Komandamızın üzvlərindən Lorenzo Sotomayor (64 kq) həlledici qarşılaşmada qüvvəsini sınayıb. Bununla, boks tariximizə ilk və hələlik yeganə finalçı kimi düşən idmançımız həlledici mərhələdə uduzaraq gümüş medal qazanıb. Kamran Şahsuvarlı (75 kq) isə Braziliyadan bürünc medalla qayıdıb. Son Oyunlarda "Tokio-2020"də də komandamız medal əldə edib. Yığmamızın aktivinə yeganə medalı (bürünc) Alfonso Dominges (81 kq) əlavə edib. Bununla da, boks millimiz "Olimpiada-1996" istisna olmaqla bütün Oyunlardan medalla qayıdıblar. Budəfəki mötəbər yarışlarda da boksçularımız əsas medal ümidlərimizdəndir.

Yığmamız üçün yarışa bu gün saat 18:18-də start veriləcək. Millimiz Fransa paytaxtında 5 boksçu ilə mübarizə aparacaq. Rinqə çıxacaq ilk təmsilçimiz Alfonso Domingues (92 kq) olacaq. O, ilk döyüşünü Xulio Sesarla Krus (Kuba) keçirəcək. Bir gün sonra Məhəmməd Abdullayev (+92 kq) Nelvi Tiafak (Almaniya) ilə qarşılaşacaq. Həmin gün daha bir təmsilçimiz – Malik Həsənov (63,5 kq) rinqə çıxacaq. Onun rəqibi Laşa Quruli (Gürcüstan) olacaq. İyulun 30-da Nicat Hüseynov (51 kq) Yunior Alkantara Reyesla (Dominikan Respublikası) gücünü sınayacaq. Yığmamızın digər üzvü Murad Allahverdiyev (80 kq) isə Abdelrahman Abdelqavvad (Misir) ilə mübarizə aparacaq.

Yeri gəlmişkən, boksçularımızın hamısı Olimpiadaya 1/8 finaldan başlayacaqlar. Əminik ki, rinq ustalarımız ümidləri doğruldaraq Vətənə böyük uğurlarla qayıdacaqlar!

## Badmintonçularımız yaxşı nəticələrə ümid edirlər

**Paris-2024 Yay Olimpiya Oyunlarında iştirak edən Azərbaycan badmintonçusu Keişa Fatimə Zəhra ilk matçında çinli idmançı He Bin Çzyaoya uduzub. Buna münasibət bildirən badminton üzrə Azərbaycan millisinin baş məşqçisi Morteza Validarvi deyib ki, ilk uğursuzluq bizi heç də ruhdan salmayıb. Təbii ki, digər oyunlara daha ciddi hazırlaşmalıyıq.**



O, N qrupunda Çzyaoya (Çin) uduzan idmançımızın rəqibi ilə müqayisədə təcrübəsinin az olduğunu bildirib: "Çinli idmançı buraya qızıl medal qazanmaq üçün gəlib. Olimpiya təcrübəsi də var. Ayın 29-da yaxşı nəticə əldə etmək üçün çalışacağıq".

M.Validarvi digər badmintonçu Edi Reski Dviçayonun da şanslarını dəyərləndirib: "Edinin təcrübəsi Keişadan yaxşıdır. Onun olimpiya təcrübəsi də var. Uğur qazanmaq üçün çox istəklidir və bu yarışlara hazırdır. Dünən də onunla danışarkən bütün qarşılaşmaları qazanmaq gücünə malik olduğunu dedi. İnanıram ki, sabah Azərbaycan badmintonu üçün xoş xəbər verərik".

Qeyd edək ki, Edi Reski Dviçayo ilk görüşünə iyulun 29-da çıxacaq. Keişa Fatimə Zəhranın da ikinci görüşü eyni günə təsadüf edəcək.

## Açılış mərasimi birmənalı qarşılanmayıb

**Parisdə keçirilən Yay Olimpiya Oyunları dünyada heç də birmənalı qarşılanmayıb. Açılış mərasimi bəzi ölkələrdə tamaşaçıların kəskin reaksiyasına səbəb olub. Bu barədə Yunanıstanın pronews.gr portalı məlumat yayıb.**

"2024-cü il Olimpiya Oyunlarının açılış mərasimində özlərini guya... İsa Məsih və onun "Sonuncu Şam yeməyi"ndəki şagirdləri kimi qələmə verməyə çalışan transvestitlərin iştirakı güclü narazılığa səbəb oldu!" – deyə portal qeyd edib.

Bundan əlavə, Avropa Parlamentinin deputatı, Fransanın Milli Birlik Partiyasının liderlərindən biri olan Marin Le Penin qardaşı qızı Marion Maréchal Le Pen təqdimatdan qəzəbləndiyini bildirib. O, açılış mərasimini övladları ilə birlikdə



izlədiyini qeyd edib.

"Başları kəsilmiş Mari Antuanetta, öpüşən cütlük, Aya Nakamura ilə rəqs etməyə məcbur edilən Respublika Qvardiyasının alçaldılması, kostyumların və xoreoqrafiyanın ümumi eybəcərliyi arasındakı bir neçə uğurlu səhnəni qiymətləndirmək çətindir", - deyə o, özünün X sosial şəbəkəsində yazıb.

Deputat özü isə təqdimatı kobud oyanış mədəniyyəti təbliğatı əsasında idman dəyərlərini və Fransanın gözəlliklərini təbliğ etmək üçün həyəcanlı cəhd adlandırıb.

Bununla belə, Yunanıstanın hökumətyönlü mediası tamaşanı yüksək qiymətləndirib. Onlar bildiriblər ki, Sena çayında Oyunların açılış mərasiminin "heyrətləndirici" idi.

Xatırladaq ki, iyulun 26-da Parisdə 2024-cü il Yay Olimpiya Oyunlarının açılış mərasimi olub. Olimpiya məşəlini idmançı Mari-Xose Perek və cüdoçu Teddi Riner alovlandırıb. Daha sonra müğənni Selin Dion Edit Piafın "Hymn of Love" mahnısı ilə tamaşaçılar qarşısında çıxış edib.

## İlon Mask da şoudan narazı qalıb



***Amerikalı milyarder İlon Mask 2024-cü ildə Parisdə (Fransa) Olimpiya Oyunlarının açılış mərasiminin təşkilini tənqid edib. Məlumatı "Sport.ru" verib.***

Maskın sözlərinə görə, mərasim xristianları təhqir edib. "Bu, xristianlara qarşı son dərəcə hörmətsizlik idi", – Mask sosial şəbəkədə yazıb.

Amerikalı iş adamı mərasimdən bəzi görüntüləri də paylaşıb. Xüsusilə, o, "Son şam yeməyi"nin parodiyasını və qadın geyimində olan kişini yayımlayıb.

Bundan başqa, məşhur məşqçi Andrey Nazarov da 2024-cü il Paris Olimpiya Oyunlarının təşkilini şərh edib.

"Dünən Parisdə bu dövrün əsas idman hadisəsi olan Olimpiadanın açılışını izləmək imkanım oldu. Düzünü desəm, təəssüratlar heç də müsbət deyildi. Açılış qəribə bir şouya bənzəyirdi. Bunu 2014-cü ildə Soçidə keçirilmiş Qış Olimpiya Oyunları və ya 1980-ci ildə Moskvada keçirilmiş Yay Olimpiya Oyunları ilə müqayisə etmək mümkün deyil. Bu iki açılış mərasimləri heyrətamiz idi və ən yaxşılardan biri kimi tarixə düşüb. Lakin Parisdə açılış Makronun tərifləməsinə baxmayaraq, tamamilə uğursuz oldu", - deyə Nəzərov "Çempionat"ın müxbiri ilə söhbətində bildirib.

## "İnanıram ki, avarçəkənimiz növbəti mərhələdə də uğurla çıxış edəcək"

**Bu sözləri Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) baş katibi Fərhad Əliyev Diana Dımçenkonun ilk çıxışı barədə danışarkən deyib ki, o, avarçəkənimizin növbəti mərhələdə də uğurla çıxış edəcəyinə inanır.**



O, dördilliyin ən mötəbər yarışında güclü idmançıların yer aldığını söyləyib: "Sevindiricidir ki, Diana ilk "üçlüyə" daxil ola bildi. O, bunun üçün çalışırdı. Cəhdləri alınmasaydı, vəziyyət daha da çətinləşəcəkdi. Birbaşa 1/4 finala yüksəldiyinə görə iki gün istirahət edəcək. Bu, olduqca böyük üstünlükdür. İdmançı və federasiya üçün üç il ərzində bu cür iş görmək çox çətin idi. Amma biz bunun öhdəsindən gəldik. Bu gün əldə etdiyimiz nəticə çox önəmli idi. Yarış yerinə gəlib, qayıtmaq da çətindir. Yol baxımından problem yaşansa da, bu məsələni komanda şəklində həll etdik. Bütün idmançılarıma Paris olimpiadasında uğurlar arzulayıram".

Qeyd edək ki, Diana Dımçenko 2000 metr məsafəyə fərdi yarışın qrup mərhələsində üçüncü olaraq 1/4 finala vəsiqə qazanıb. O, bu mərhələdəki mübarizəsinə iyulun 30-da çıxacaq.

## Astana Dünya Köçəri Oyunlarına hazırlaşır




**Sentyabrın 8-13-də Astanada 5-ci Dünya Köçəri Oyunları keçiriləcək.**

Artıq şəhərdə qarşıdakı mötəbər hadisəni simvolizə edən tematik tərtibat görmək mümkündür. Paytaxtda xüsusi tərtib olunmuş avtobuslar hərəkət edir. Hazırlıq çərçivəsində paytaxt bu irimiqyaslı tədbirin unikallığını və koloritini əks etdirən kiçik memarlıq formaları ilə bəzədilib.

İdman yarışlarını və mədəni tədbirləri 100 mindən çox turistin izləyəcəyi gözlənilir.

Qeyd edək ki, Astanada keçiriləcək Dünya Köçəri Oyunlarında 21 idman növü üzrə 97 dəst medal uğrunda mübarizə gedəcək. Tədbirdə təxminən 2000 idmançının iştirakı nəzərdə tutulur.

## Külək, yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 28-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 19-23°, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq.**

Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz



25-29°, dağlarda gecə 8-13°, gündüz 13-16° isti olacaq.

***Q.QASIMOV***
***XQ***



## Türkiyəli idmançıdan tarixi nəticə

**Türkiyəli güllə atıcısı Şevval İlayda Tarhan "Paris-2024" Yay Olimpiya Oyunlarında tarixi nəticəyə imza atıb.**

Qadın idmançı 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada 577 xal toplayaraq 7-ci yeri tutub. Bununla da o, Olimpiada tarixində bu növdə finala yüksələn ilk türkiyəli atıcı olub.

O, finaldakı mübarizəsinə iyulun 28-də çıxacaq. Qeyd edək ki, Paris olimpiadasına avqustun 11-də yekun vurulacaq.

***Səhifəni hazırladılar:***
***Məsaim ABDULLAYEV,***
***Paşa ƏMİRCANOV,***
***Leyla QURBANOVA***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Orxan Amaşov yaxın dostu Emin Rəhmanova atası

**YELMAR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3169
SİFARİŞ 1631
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00